Xalqın qəzeti!

# Xalq qəzeti

№ 171 (30865) 16 avqust 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Sülh memarı

## *İlham Əliyevin bəyanatı fonunda beynəlxalq aktorların mövqeləri və siyasi nəticələr*



**Sülh hər zaman reallıq üzərində qurulan möhkəm siyasi iradə ilə formalaşır. Azərbaycan Prezidenti İlham Əliyev bu iradəni illərlə ardıcıl şəkildə apardığı siyasətdə nümayiş etdirib. Əgər bu gün Bakı diplomatik masada “qaydaları müəyyən edən tərəf” mövqeyindədirsə, bu, uzunmüddətli strateji planlaşdırmanın, güc balansını dəyişdirən addımların və reallığı diplomatiyanın əsas alətinə çevirən yanaşmanın nəticəsidir. Sülhün yeni memarı kimi İlham Əliyev regionun yalnız bu günü üçün deyil, gələcək onillikləri üçün də siyasi arxitektura qurur. Yeni arxitektura sərhədlərin sabit, kommunikasiya xətlərinin açıq, enerji marşrutlarının təhlükəsiz olduğu bir gələcəyə hesablanıb. İndi əsas sual budur ki, beynəlxalq aktorlar bu yeni memarlıq planına necə reaksiya verəcək?**

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan tarixi dostluğa sadiqdir



səhifə ⇨ 3

## Tehranın reallığın qəbulundan doğan nikbinliyi




səhifə ⇨ 4

## Vaşinqton sammiti – geosiyasət, təhlükəsizlik və iqtisadiyyat



səhifə ⇨ 5

## Taxıl biçini marafonu sona çatır

### *Bu mövsümdə 3 milyon tona yaxın məhsul toplanıb*

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın mühüm növ kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, eləcə də ixrac potensialının artırılması məqsədilə əkin sahələri ilbəil genişlənir. İlin əvvəlindən torpağa atdığı hər bir dənin cücərib boy atması üçün səy göstərən, tər tökən əkin-biçin adamı indi zəhmətinin bəhrəsindən məmnundur.**

*(ardı 7-ci səhifədə)*



## Xalqımızın sayı 10 milyon 242 min nəfəri keçib

**Bu ilin I yarısında Azərbaycanın əhalisinin sayı 16 min 833 nəfər artıb. 0,2 faizlik bu çoxalma xalqımızın sayını 10 milyon 241 min 722 nəfərə çatdırıb.**



Dövlət Statistika Komitəsinin bu açıqlamasında bildirir ki, əhalinin ümumi sayının 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23 faizi Bakı şəhərinin, 9,2 faizi Lənkəran–Astara, 8,6 faizi Abseron–Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax–Tovuz, 6,1 faizi Şəki–Zaqatala, 5,8 faizi Gəncə–Daşkəsən, 5,4 faizi Quba–Xaçmaz, 5,2 faizi Mil–Muğan, 4,9 faizi Sirvan–Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3 faizi isə Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb

İşğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə avqustun 1-dək 17 min 204 nəfərdən ibarət 4 min 325 ailənin qayıdışı təmin edilib. Bu bölgələrdə bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı isə 35 min 385 nəfər təşkil edib.

## Təyyarə rüsvayçılığı: Rusiya məsuliyyətdən niyə yayınır?



səhifə ⇨ 6

## Orta Dəhliz tezliklə dünya ticarətinə daha yüksək səmərə gətirəcək




səhifə ⇨ 8

## Azərbaycan torpaqlarında Ermənistan dövləti necə qurulub?



səhifə ⇨ 9

## Poeziyamızın Bəxtiyarı



səhifə ⇨ 10

## Konqo Respublikasının Prezidenti Zati-aliləri cənab Deni Sassu-Nqessoya

**Hörmətli cənab Prezident!**

Konqo Respublikasının müstəqilliyinin 65-ci ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan ilə Konqo arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Sizin keçən il ölkəmizə iki səfəriniz əməkdaşlığımızın genişlənməsinə əhəmiyyətli təkan vermişdir.

Hazırda Azərbaycan ilə Konqo arasında formalaşmış dostluq münasibətləri siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli zəmin və imkanlar yaratmışdır.

Əminəm ki, Azərbaycan-Konqo əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığımızın dərinləşməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Konqo xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

## Azərbaycan nümayəndəsi BMT-nin CERF Məsləhətçi Qrupunda

**Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antoniu Quterreş Fövqəladə Hallara qarşı Mərkəzi Cavab Fondunun (CERF) Məsləhətçi Qrupunun tərkibinə 12 yeni üzv təyin edib.**

Yeni üzvlər arasında Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin direktoru Elmaddin Mehdiyev də var.

Xatırladaq ki, 2005-ci ildə BMT Baş Assambleyası tərəfindən təsis olunan Məsləhətçi Qrup Humanitar Məsələlər üzrə Baş katibin müavini və Fövqəladə Yardım Koordinatoru vasitəsilə Baş katibə CERF-nin istifadəsi və təsiri ilə bağlı siyasət tövsiyələri və məsləhətlər verir.

2006-cı ildən bəri CERF 110-dan çox ölkə və ərazilərdə yardım xarakterli 9,2 milyard ABŞ dollarından çox vəsait ayırıb.

***XQ***

# Keniya qəzeti Vaşinqton Bəyannaməsinin Azərbaycana gətirəcəyi uğurlardan yazıb







**Keniyanın ən nüfuzlu mətbuat orqanlarından biri "The Standart" qəzetində Azərbaycan haqqında məqalə dərc olunub.**

Məqalədə ölkəmizin gələn il mayın 17-dən 22-dək ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) əsas müzakirə mövzularından birinin əlçatan mənzillərin inşası olduğu, bu məsələnin isə Keniya üçün xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladıqları Birgə Bəyannamənin WUF 13-ün əhatə dairəsi və təsir imkanlarının genişlənməsi üçün ciddi imkanlar yaradacağı bildirilib.

Yazıda Azərbaycanın 30 illik erməni işğalından azad etdiyi ərazilərdə apardığı irimiqyaslı bərpa və yenidənqurma işləri, sürətlə inkişaf etdirilən nəqliyyat-kommunikasiya xətləri ilə regionda sülh və əməkdaşlığa verdiyi töhfə də qeyd olunub.

Həmçinin qeyd olunub ki, 2002-ci ildə ilk Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi etmiş Keniya bu sahədə qlobal meyarların WUF13 çərçivəsində yüksək səviyyədə müzakirəsinə xüsusi əhəmiyyət verir. 2024-cü ildə COP29-a ev sahibliyi edən Azərbaycan tərəfindən dayanıqlı urban inkişafı və iqlim dəyişikliyi proseslərinin qarşılıqlı təsirləri ilə bağlı təşəbbüslərinə xüsusi diqqət yetirməsi WUF13-ün hədəf və məqsədləri üçün mühüm fürsətlər yaradır.

Bundan əlavə, məqalədə ölkəmizin 2026-cı ildə Ümumdünya Ətraf Mühit Gününə (WED2026) ev sahibliyi edəcəyi və bu tədbirin qlobal iqlim fəaliyyəti üçün vacibliyi diqqətə çatdırılıb.

***XQ***

## Baş prokuror Xaçmazda vətəndaşlarla görüşüb



**Avqustun 15-də Baş prokuror Kamran Əliyev Xaçmaz Rayon Prokurorluğunun inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı rayonlarından və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 43 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib.

***XQ***

## Azərbaycan–Çin Orta Dəhliz əməkdaşlığı müzakirəsi



**"Azərbaycan Dəmir Yolları" QSC-nin tabeliyindəki "Bakı Beynəlxalq Dəniz Limanı" MMC-nin direktoru Eldar Salahov Çinin Bakıdakı səfiri xanım Lu Mey ilə görüşüb.**

Görüşdə qonaqlara limanın infrastruktur imkanları, son illərdə əldə edilən nəticələr və iki ölkə arasında yükdaşımalar üzrə göstəricilər barədə ətraflı məlumat verilib. E.Salahov çıxışında Bakı Limanının Orta Dəhlizin mühüm tranzit mərkəzlərindən biri kimi strateji əhəmiyyətini vurğulayaraq Çindən Avropaya uzanan yük axınlarının daha səmərəli və sürətli şəkildə həyata keçirilməsi üçün birgə səylərin önəmini qeyd edib.

Səfir Lu Mey isə Çin şirkətlərinin Orta Dəhlizdən istifadə imkanlarını yüksək qiymətləndirərək iki ölkə arasında ticarət və logistika əlaqələrinin daha da gücləndirilməsi üçün mövcud potensialdan istifadənin vacibliyini bildirib.

Qeyd edək ki, ötən ilin ilk yeddi ayı ərzində Bakı Limanından keçməklə Çindən Qərb istiqamətində, Qərbdən Çin istiqamətində, o cümlədən Azərbaycanın Çinlə ticarət dövriyyəsi üzrə ümumi yükaşırma həcmi 360 min ton təşkil etdiyi halda, cari ilin müvafiq dövründə bu göstərici 3,0 % artaraq 371 min tondan çox olub.

**Xuntaçıların məhkəməsi**

# Zərərçəkmişlər təqsirləndirilən erməni hərbçilərini ittiham ediblər



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 15-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxs Lalə İsmayılova Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Zəngilan rayonunun Yuxarı Yeməzli kəndindən məcburi köçkün düşdüyünü bildirib. O, polis əməkdaşı olan qardaşı İsmayıl İsmayılovun 1993-cü il oktyabrın 25-də digər 6 polislə birlikdə Cəbrayıl rayonunun Dərzili kəndində Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirildiyini deyib. Onların nəşləri indiyədək tapılmayıb.

Zərərçəkmiş Bikəxanım Quliyeva ifadəsində bildirib ki, yaşadığı Orta Yeməzli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən zaman dördotaqlı evi yandırılıb, qardaşı İlham Quliyev qətlə yetirilib. İdris Mirzalıyevisə Zəngilan rayonundan məcburi köçkün düşdüyünü, Zəngilanda və Tərtərdə yaralandığını bildirib. Xavər Şükürova 1993-cü ilin oktyabr ayında Zəngilan rayonunun Havalı kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində məcburi köçkün düşdüyünü deyib.

Məleykə Hüseynova Zəngilan 1993-cü il oktyabrında rayon işğal edilərkən Araz çayından keçərək xilas olub, qardaşı isə itkin düşüb. Ülkər İsgəndərova 1993-cü il oktyabrın 29-da Zəngilan rayonundan məcburi köçkün düşdüyünü bildirib. Ramal Məmmədov 2020-ci ildə artilleriya atəşi nəticəsində yaralandığını deyib.Tamilə Süleymanova 1993-cü il oktyabrın 30-da Zəngilan işğal edilərkən Araz çayından keçərək xilas olub. Nazilə Hüseynova 1993-cü il avqustun 23-də Füzuli rayonunun Qaraxanbəyli kəndindən məcburi köçkün düşdüyünü deyib.

Vəfalı Qədirov 2017-ci il fevralın 2-də Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində güllə yarası aldığını söyləyib. Zərərçəkmiş Ələmdar Mədətov 7 nəfər ailə üzvü ilə birlikdə 1993-cü ildə yaşadığı Zəngilan rayonundan məcburi köçkün düşdüyünü bildirib. Kəmalə Yusifova minanın partlaması nəticəsində ağır yaralanıb, ayağı amputasiya olub. Ceyhun Quliyev ifadəsində 1993-cü ildə Zəngilandan məcburi köçkün düşdüyünü deyib.

İbadət Süleymanov və İsgəndər İsgəndərov 1993-cü ilin oktyabrında Zəngilan rayonundan məcburi köçkün düşdüklərini söyləyiblər. Zülfü Həsənəliyev Zəngilanın işğalı zamanı Ermənistan silahlı qüvvələrinin mülki şəxslərə, o cümlədən qadınlara və qocalara qarşı amansız davrandığını bildirib. Nəbi Nağıyev Zəngilanda qardaşının şəhid olduğunu söyləyib.



Xanoğlan Süleymanov Zəngilanda qardaşının azyaşlı övladı Sadiq Süleymanovun və qardaşı Baloğlan qətlə yetirildiyini bildirib. Eldar Novruzov 1992-ci ilin sentyabr ayında Zəngilan rayonunun Malatkeşin kəndində yaşadığı evə mərmi düşdüyünü bildirib. Vidadi Orucov Zəngilan rayonunun Məmmədbəyli kəndindən məcburi köçkün düşdüyünü söyləyib. Rasim Camalov, Raci İsmayılov, Barat Xanlarov, Əşrəf İbadov Zəngilandan məcburi köçkün düşdüklərini söyləyiblər. Abış Məhərrəmov, Mahir Xəlilov və Habil Nuriyev Araz çayından keçərək xilas olduqlarını bildiriblər.

Rövşən Abdullayev bildirib ki, 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb, özü və digər azərbaycanlılar işgəncələrə məruz qalıblar. Elbrus Hacıyev, Elbrus Abbasov və Adil Quluyev Laçın rayonunu tərk etmək məcburiyyətində qaldıqlarını deyiblər. Soltan Məmmədov 1993-cü ilin avqust ayında Füzuli rayonunun Qərvənd kəndindən məcburi köçkün düşdüyünü söyləyib. Bildirib ki, hücumlar zamanı doğmaları şəhid olub. Vaqif Hüseynov Füzuli rayonunun Merdinli kəndindən məcburi köçkün düşdüyünü, Anar Məmmədov minanın partlaması nəticəsində sol qolunu itirdiyini bildirib, Ağa Əhmədov Füzuli rayonunda xəsarət aldığını deyiblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən Davit İşxanyanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarına da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 18-də davam etdiriləcək.

***XQ***

# Sülh memarı

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin ABŞ-a səfəri zamanı "Fox News" telekanalına verdiyi müsahibədə səsləndirdiyi "İstər regionumuzdan olan, istərsə də regionumuzdan kənarda yerləşən istənilən dövlət tərəfindən bugünkü nailiyyətlə bağlı hər hansı bir mənfi fikir bildirilməsi çox çətin olar. Çünki bu gün biz sülh istiqamətində yekun addımı atdıq" bəyanatı Cənubi Qafqaz diplomatiyasında yeni siyasi reallığın qısa, lakin dərin ifadəsi kimi qiymətləndirilməlidir. Prezidentin sözləri sırf diplomatik üslubun tələbi olaraq səsləndirilmiş politoloji jest deyil. Burada həm milli maraqların qorunması, həm də regional geosiyasi mühitin yenidən formatlanması üçün aparılan çoxillik strategiyanın kulminasiya nöqtəsi əksini tapır.

Azərbaycanın 2020-ci ildən sonrakı mərhələdə qurduğu siyasi xətt təkcə müharibə sonrası reallıqları idarə etməyə deyil, həm də bu reallıqları beynəlxalq hüquq və praktiki təhlükəsizlik mexanizmləri ilə möhkəmləndirməyə yönəldi. Məsələnin mahiyyətini anlamadan, bugünkü nailiyyətlərin diplomatik çəkisini dəyərləndirmək mümkün deyil. Çünki burada söhbət yalnız Ermənistanla imzalanacaq sənəddən getmir; söhbət Azərbaycanın beynəlxalq sistemdəki "rol oyunçusu" statusunu dəyişdirməsindən gedir.

Əgər keçmişdə Bakı çox vaxt regional güclərin və qlobal aktorların qoyduğu qaydalara uyğun mövqe sərgiləyirdisə, bu gün həmin aktorlar Azərbaycanın müəyyən etdiyi parametrləri nəzərə almağa məcburdur. Başqa sözlə, ölkə qaydaları qəbul edən tərəf mövqeyindən qaydaları yazan tərəf statusuna keçib. Bu, beynəlxalq münasibətlər nəzəriyyəsində normativ gücün dəyişməsi kimi izah olunur. Sadə dildə desək, masada qaydaları oxuyan yox, diktə edən mövqeyə sahib olmaq artıq Azərbaycanın əlindədir.

Burada vacib sual ortaya çıxır: Qərbin uzun illərdir tətbiq etdiyi təzyiq mexanizmləri niyə effekt vermədi? Cavab bir neçə faktora söykənir. Əvvəla, Azərbaycanın iqtisadi, xüsusən enerji sektorunda müstəqil strategiya yürütməsi və Avropanın enerji asılılığında yeni balans yaratması təzyiq imkanlarını minimuma endirdi. Avropa üçün Azərbaycan qazı və Orta Dəhliz yalnız enerji təhlükəsizliyi deyil, həm də siyasi təhlükəsizlik məsələsidir. İkincisi, Bakı "preskriptiv" (qaydaları əvvəlcədən diktə edən) yanaşmanı qəbul etmədi və sülh prosesini "fakt-mərkəzli fasilitasiyaya" – yəni real vəziyyətə uyğun, işlək və praktik mexanizmlər əsasında – idarə etdi. Rəsmi Bakının bu yanaşması beynəlxalq vasitəçilərin də mövqelərini dəyişməyə məcbur etdi.

Sülh prosesində normativ modeldən fakt-mərkəzli modelə keçid, əslində, Azərbaycanın diplomatiyasında yeni bir mərhələdir. Normativ modeldə əsas diqqət beynəlxalq prinsiplərin və hazır hüquqi çərçivələrin tətbiqinə yönəlir. Bəli, bu prinsiplər kağız üzərində ideal görünür, lakin reallıqda çox vaxt tərəflərin ehtiyaclarına uyğun gəlmir. Fakt-mərkəzli model isə real vəziyyəti, güc balansını, iqtisadi maraqları və tərəflərin qəbul edə biləcəyi minimal kompromisləri əsas götürür. Məhz bu çeviklik Azərbaycanı son illərdə sülh gündəliyində əsas istiqamətverici tərəf etdi.

Prezident İlham Əliyevin bəyanatı və Azərbaycanın sülh prosesində əldə etdiyi üstün mövqe müxtəlif beynəlxalq aktorlar üçün fərqli reaksiyalar doğura bilər. Belə reaksiyalar həm rəsmi diplomatik bəyanatlar, həm də qeyri-rəsmi siyasi mövqelər vasitəsilə özünü göstərəcək.

Vaşinqtonun birbaşa vasitəçilik rolu və sülh razılaşmasının yekun mərhələsinə çatdırılması ABŞ üçün mühüm diplomatik uğur kimi təqdim ediləcək. Mövcud mövqe



ABŞ-ın Cənubi Qafqazdakı nüfuzunu artırmaqla yanaşı, Rusiyanın regiondakı təsir imkanlarını məhdudlaşdırmaq strategiyasına da uyğundur. Qərb ölkələri üçün Azərbaycanın regional "qaydaları müəyyən edən tərəf" mövqeyi enerji təhlükəsizliyi və nəqliyyat marşrutlarının sabitliyini təmin etdiyi üçün müsbət qarşılanacaq. Başqa sözlə, onlar Azərbaycanı problem mənbəyi kimi deyil, həll mənbəyi kimi görməkdə maraqlıdırlar.

Moskva üçün bu proses ikitərəfli nəticə yaradır. Bir tərəfdən, Ermənistanla Azərbaycan arasında sülhün imzalanması Rusiyanın KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) daxilindəki mövqelərinə mənfi təsir göstərə bilər, çünki Moskva üçün "dondurulmuş münaqişələr" təsir vasitəsi rolunu oynayırdı. Digər tərəfdən, Rusiya Azərbaycanın "qayda yaradan" mövqeyinin tamamilə qarşısını almağa çalışmayacaq. Çünki Bakı ilə strateji enerji və ticarət əlaqələrini qorumaq Moskva üçün də vacibdir.

Aİ üçün bu prosesin əsas əhəmiyyəti Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) sabit işləməsidir. Bu marşrut Avropanın enerji və logistika diversifikasiyası (təchizat mənbələrinin və yollarının artırılması) strategiyasının mərkəzi elementidir. Azərbaycanın sülhü təmin etməsi Aİ-nin də regional iqtisadi layihələrdə riskləri azaltmasına imkan verəcək.

İrəvan üçün bu, psixoloji və siyasi baxımdan ağır mərhələ olacaq. Sülh sazişinin imzalanması Azərbaycanın ərazi bütövlüyünün tanınması anlamına gəlir ki, bu, Ermənistan siyasətində uzun illər davam etmiş "status" narrativinin sona çatması deməkdir. Ermənistan daxilində müəyyən siyasi qüvvələr bunu məğlubiyyət kimi qələmə verərək, daxili sabitliyi pozmağa çalışırlar. Lakin regionun iqtisadi inteqrasiyası və kommunikasiya xətlərinin açılması uzunmüddətli perspektivdə Ermənistanın da maraqlarına uyğun olacaq. Eyni zamanda, xalq diplomatiyası—yəni vətəndaşlararası əlaqələrin, mədəni mübadilələrin, təhsil və biznes əlaqələrinin təşviqi—sülh prosesinə əlavə sosial dayaqlar təmin edir. Belə bir mexanizm insanların qarşılıqlı etimadını gücləndirir, stereotipləri azaldır və rəsmi diplomatiyanın yaratdığı çərçivələri möhkəmləndirir. Beləliklə, yalnız rəsmi razılaşmalar deyil, həm də vətəndaşlararası əməkdaşlıq Ermənistan cəmiyyətini sülhə hazırlayan mühüm faktor kimi çıxış edir.

Türkiyə Azərbaycanın mövqeyinin güclənməsini özünün Cənubi Qafqazdakı strateji məqsədləri ilə üst-üstə düşən nəticə kimi qəbul edəcək. Hazırkı mərhələ Bakı–Ankara tandeminə əlavə diplomatik kapital qazandırır. İran isə prosesə ehtiyatla yanaşacaq, çünki Orta Dəhlizin güclənməsi Tehranın öz tranzit imkanlarının əhəmiyyətini nisbətən azalda bilər.

Son olaraq, beynəlxalq reaksiyalar konfiqurasiyası göstərir ki, Azərbaycanın sülh gündəliyi artıq təkcə ikitərəfli münasibətlər kontekstində deyil, regional və qlobal geosiyasi arxitekturanın bir hissəsi kimi formalaşır. Mövcud vəziyyət Azərbaycanın yalnız regiondaxili deyil, həm də qlobal enerji, nəqliyyat və təhlükəsizlik gündəliyində etibarlı tərəfdaş statusunu möhkəmləndirir. Əks tərəflər üçün reallığı qəbul etmək artıq zərurətə çevrilir, çünki prosesdən kənarda



qalmaq yalnız diplomatik və siyasi təcridlə nəticələnmir, eyni zamanda, iqtisadi itkilərə, strateji mövqelərin zəifləməsinə və regional inteqrasiya layihələrindən kənarda qalmağa səbəb olur. Yəni, faktiki mövcudluğunu və təsir imkanlarını genişləndirən Azərbaycan qarşısında "passiv qalmaq" həm ölkələrin gələcək enerji təminatına, həm də ticarət və nəqliyyat marşrutlarına çıxış imkanlarına mənfi təsir göstərə bilər. Bu isə yalnız Qafqaz regionunda deyil, Avropa və Asiya üçün də geosiyasi risklər yaradır. Beləliklə, beynəlxalq aktorlar sülh prosesinə aktiv şəkildə qoşulmağa məcbur olurlar.

Prezidentin strategiyası və baxışı sübut edir ki, yalnız qətiyyətli liderlik və rasional diplomatiya ilə regional və qlobal aktorları reallıqları qəbul etməyə və konstruktiv əməkdaşlığa yönəltmək mümkündür. Azərbaycanın yeni sülh gündəliyi Prezident İlham Əliyevin rəhbərliyi altında həm ölkənin milli maraqlarını qoruyur, həm də beynəlxalq ictimaiyyət üçün dayanıqlı və praktik həllərin standartını müəyyən edir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

# Azərbaycan tarixi dostluğa sadiqdir

*Ukraynaya humanitar yardım xalqımızın mənəvi zənginliyini ifadə edir*

**Azərbaycan Respublikası beynəlxalq hüququn əsas prinsiplərinə hörmətlə yanaşması ilə seçilir. Eyni zamanda, ölkəmiz humanizm prinsiplərini də hər zaman üstün tutur. Dünyanın müxtəlif bölgələrində təbii fəlakətlərdən əziyyət çəkən dövlətlərə və xalqlara ikitərəfli və çoxtərəfli əsasda yardımlar göstərməyimizin əsasında məhz humanizm prinsiplərinə sadiqliyimiz dayanır. Ölkəmiz zəlzələ, daşqın və digər fəlakətlər zamanı dərhal humanitar missiyalar həyata keçirir. Müharibə və silahlı münaqişələrdən zərər çəkən mülki əhaliyə ərzaq, tibbi ləvazimat və digər vacib tələbat mallarının göndərilməsi də Azərbaycanın humanizm prinsiplərinə sadiqliyinin bariz nümunəsidir. Rəsmi Bakının bu addımları beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.**



Onu da qeyd edək ki, hələ 2011-ci ilin sentyabrında Xarici İşlər Nazirliyinin nəzdində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi və ya qısaca AIDA yaradılıb. Agentlik Azərbaycan dövləti tərəfindən göstərilən beynəlxalq humanitar və inkişafa yardım fəaliyyətini həyata keçirir, eləcə də yardım göstərilməsində iştirak edən bütün dövlət qurumlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsini, prosesin vahid mərkəzdən idarə olunmasını təşkil edir. AIDA dünyanın inkişaf etməkdə olan ölkələrində yoxsulluğun azaldılması, elm, mədəniyyət, təhsil və səhiyyə sahələrinin inkişafı, rabitə və informasiya texnologiyalarının tətbiqi, müxtəlif təqaüd proqramlarının, həmçinin digər humanitar və texniki layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir.

Ölkəmizin həyata keçirdiyi humanitar yardımların bir istiqamətini də işğaldan əziyyət çəkən Ukraynaya humanitar yardımların göndərilməsi təşkil edir. Burada da yenə humanizm prinsipləri əsas götürülür. Prezident İlham Əliyev avqustun 11-də Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycanın Energetika Nazirliyinə vəsait ayrılmasına dair sərəncam imzalayıb. Sərəncamda bildirildiyi kimi son illərdə Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına bir neçə dəfə humanitar yardım göndərilib. Qeyd edilib ki, Azərbaycanla Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir. Sərəncamla Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycanda istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Energetika Nazirliyinə 2 milyon ABŞ dolları həcmində vəsait ayrılıb.

Sərəncama əsasən Energetika Nazirliyi tərəfindən təmin edilmiş elektrik avadanlıqlarından ibarət yükün birinci hissəsi avqustun 13-də Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb. Bu, elektrik hava xətləri avadanlıqlarından ibarət idi. Humanitar yükə 90 min metrə yaxın elektrik kabeli və naqilləri, 25 generator və 7 transformator daxildir. Ukraynanın davam edən müharibədən zərər çəkmiş rayonlarının elektrik enerjisi ilə sabit təchizatının bərpasına dəstək məqsədi daşıyan bu avadanlığın birinci hissəsi 10 yük maşınından ibarət karvanla yola salınıb. Humanitar yardımın ikinci hissəsi avqustun 15-də yenə Sumqayıt Texnologiyalar Parkından göndərilib. Elektrik kabelləri və naqillərindən ibarət humanitar yardım 9 yük maşını ilə yola salınıb.

Bundan əvvəl də Azərbaycan elektrik təchizatı ilə bağlı Ukraynaya humanitar yardım göndərib. 2023-cü ildə və 2025-ci ilin fevral ayında imzalanmış sərəncamlar çərçivəsində müvafiq olaraq 7 milyon, 16 milyon və 1 milyon ABŞ dolları məbləğində maliyyə ayrılıb. Ümumilikdə, müharibə ilə əlaqədar olaraq Azərbaycanın Ukraynaya göstərdiyi ümumi humanitar yardımın həcmi 44 milyon ABŞ dollarını ötüb. Yeri gəlmişkən, qeyd edək ki, bu, həm maddi məbləğ, həm də siyasi-etik məzmun baxımından mühüm göstəricidir. Çünki burada əsas amil yalnız yardımların miqdarı deyil, onun ardıcıl və prinsipial xarakter daşımasıdır. Rəsmi Bakının Ukraynanın suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı mövqeyi də dəyişməz olaraq qalır.

Onu da bildirək ki, Azərbaycanın bu mövqeyi Ukraynada da yüksək qiymətləndirilir. Humanitar yardımın göndərilməsi münasibətilə keçirilən tədbirdə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev Prezident İlham Əliyevə təşəkkür edib. Səfir Ukraynanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini də bəyan edib. Bu, əslində, dövlətlərarası münasibətlərin qarşılıqlı dəstək və etimad üzərində qurulduğunu göstərir. Yəni, Azərbaycan təkcə yardımla humanizm prinsipini nümayiş etdirmir, eyni zamanda, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfə verir.

***

Azərbaycanın Ukraynaya yardımı həm də beynəlxalq hüquq baxımından mühüm ismarıc xarakteri daşıyır. Rəsmi Bakı açıq şəkildə bəyan edir ki, Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir. Bu mövqe Azərbaycanın öz müstəqilliyi və ərazi bütövlüyü uğrunda apardığı mübarizə ilə də səsləşir. Azərbaycan bununla mesaj verir ki, beynəlxalq münasibətlərdə ədalətli mövqe ikili standartlara yox, məhz hüquqa və humanizmə söykənməlidir. Nəticə etibarilə, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstək, sadəcə, bir yardım aksiyası deyil, dövlət siyasətinin təməlini təşkil edən humanizm prinsiplərinin beynəlxalq miqyasda tətbiqidir. Ölkəmiz bu yolla bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirir, dostluq və həmrəylik körpüləri qurur. Ukraynada bu mövqeyin yüksək qiymətləndirilməsi isə Azərbaycan diplomatiyasının və humanitar siyasətinin uğurunu təsdiqləyir. Humanizm prinsiplərinə söykənən bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməklə yanaşı, həm də gələcəkdə sülh və təhlükəsizliyə xidmət edən strateji addım kimi dəyərləndirilə bilər.

Ukrayna xalqının çətin günlərində Azərbaycanın yanında olması həm tarixi dostluq ənənələrinin davamı, həm də strateji tərəfdaşlıq münasibətlərinin təbii nəticəsidir. Yardımların əsasən enerji infrastrukturunun bərpasına yönəldilməsi də təsadüfi deyil. Bu, insanların gündəlik həyatının normallaşmasına, xəstəxana, məktəb və digər sosial obyektlərin işinin fasiləsiz təmin olunmasına xidmət edir. Digər tərəfdən, Azərbaycanın göndərdiyi humanitar avadanlıqların özündə istehsal olunması ölkə sənayesinin gücünü və humanitar siyasətin iqtisadi potensialla uzlaşdırıldığını nümayiş etdirir. Beləliklə, Bakı həm humanizm, həm də mənəvi amilləri əsas götürərək, Ukraynaya yardım edir. Bu, Azərbaycan dövlətinin humanizm və həmrəylik dəyərlərini praktik fəaliyyətlə sübut etdiyinin daha bir göstəricisidir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstək, sadəcə, yardımların həcmi ilə ölçülməməlidir. Burada əsas məsələ ölkəmizin beynəlxalq müstəvidə nümayiş etdirdiyi mövqedir. Azərbaycanın humanizm prinsiplərinə sadiqliyi Ukrayna böhranında özünü qabarıq şəkildə göstərdi. Göndərilən humanitar yüklər, əslində, sırf gündəlik həyatın bərpasına, insanların ən zəruri ehtiyaclarının ödənilməsinə xidmət edir. Bu, rəsmi Bakının məsələyə siyasi jest kimi deyil, real insan amili prizmasından yanaşdığını təsdiqləyir.

Azərbaycanın mövqeyi həm də dəyərlər müstəvisində mühüm əhəmiyyət daşıyır. Çünki dövlətimiz beynəlxalq münasibətlərdə yalnız siyasi maraqları önə çıxarmır, insan amilini də nəzərə alır. Ukraynaya göndərilən yardımlar, xüsusilə enerji infrastrukturunun bərpasına yönəldilmiş dəstək minlərlə ailənin işıqsız və istiliksiz qalmaması üçün həyati əhəmiyyət daşıyır. Eyni zamanda, bu təşəbbüslər Azərbaycan sənayesinin imkanlarını da nümayiş etdirir. Yəni, edilən yardımlar istehsal olunan yerli məhsullardan ibarətdir.

Bu fakt bir daha göstərir ki, Bakı yalnız humanitar diplomatiyanın deyil, həm də praktiki fayda üzərində qurulmuş strateji yanaşmanın tərəfdarıdır. Ukraynada bu dəstəyin yüksək qiymətləndirilməsi, səfirin təşəkkürü də həmin siyasətin real nəticələrini ortaya qoyur. Əslində, Azərbaycanın humanitar fəaliyyəti beynəlxalq münasibətlərdə dostluq, həmrəylik və etimad mühitinin güclənməsinə xidmət edən nümunəvi addımdır.

# Tehranın reallığın qəbulundan doğan nikbinliyi

## *Zəngəzurun təhlükəsiz marşrut olduğunu izah etmək isə İrəvanın boynuna düşür*

**Tramp–Əliyev–Paşinyan paktı hələ də beynəlxalq gündəmin əsas mövzusudur. Qərbin analitik mərkəzləri və Cənubi Qafqaz regionu üzrə ekspertlər ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması və Zəngəzur üzərindən “Tramp marşrutu” (TRİPP) layihəsinin həyata keçirilməsinə dair əldə edilmiş razılaşmaları ətraflı və qızğın şəkildə müzakirə və şərh edirlər. Bu zaman bütün debat və müzakirələrdə hamı Vaşinqton bəyannamələrini təqdir edir, onların dayanıqlı sülhə və əməkdaşlığa geniş yol açdığı birmənalı şəkildə önə çəkilir.**




Nə gizlədək, Azərbaycan üçün bu marşrutla bağlı rəsmi Tehranın mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Çünki cənub qonşumuz bu mövzu müzakirə predmetinə çevrildiyi 2020-ci ilin noyabrından etibarən ona qarşı çıxmış, hətta layihənin qarşısına özünün “qırmızı xəttini” çəkdiyini bəyan etmişdi.

“Zəngəzur müzakirəsi başlayanda düşünürdük ki, əsas ideya Ermənistanın Sünik (Zəngəzur-red.) vilayətini ələ keçirmək və Naxçıvanla Azərbaycanın materik ərazisi arasında ərazi əlaqəsi yaratmaqdır. Yəni, ideya bu vilayəti ələ keçirmək idi və biz o zaman ciddi narahatlığımızı bildirdik”.

Bunu IRNA agentliyinə müsahibəsində İranın xarici işlər naziri Abbas Əraqçi söyləyib. Vaşinqtonda iki ölkə arasında əldə edilən razılaşmaların miqyasının hələ tam aydın olmadığına diqqət çəkən İranın baş diplomatı bu barədə İrəvanın onları kifayət qədər məlumatlandırdığını deməyi də unutmur: “Amma zahirdə nə görünürsə odur və ermənilər bizə bunları dedilər; Ermənistanın baş naziri Nikol Paşinyan bizim Prezidentimizə zəng etdi, onların xarici işlər naziri mənə zəng etdi, xarici işlər nazirinin müavinini Tehrana göndərdilər. Hamısı bizə hərtərəfli izahat verdilər. Həm baş verənlər, həm də baş verməli olanlar barədə. Buna “regionda geosiyasi dəyişikliklər” deyilirdi. Tamamilə fərqli şeylərdir. Mən demirəm ki, indi baş verəcəklər narahatlıq doğurmur, çünki bizim bəzi narahatlıqlarımız var”.

Bəs Əraqçinin narahatlığı nədən ibarət imiş? Onun dediyinə görə, guya, əvvəllər Azərbaycanı Naxçıvanla birləşdirəcək və İrəvanın deyil, Bakının nəzarəti altında olacaq 5-10 kilometr enində dəhlizin yaradılmasından danışılırdı. Bundan ciddi geosiyasi narahatlıq keçirdiklərini dilə gətirən nazir Əraqçi müsahibəsində rəsmi Tehranın o zaman hətta silahlı qüvvələrini sərhədin yaxınlığında yerləşdirdiyini də etiraf edib. Yəni, bu ərazidə təhlükəsizliyini təmin etməkdən ötrü hərbi mövcudluq yaradan İran hakimiyyəti sonra əmin olub ki, belə ideyalardan söhbət gedə bilməz. Tehranı buna əmin edən digər amil Bakının tutduğu şəffaf və konstruktiv mövqe, eləcə də Prezident Məsud Pezeşkianın son dörd ayda Azərbaycana iki səfərində nümayiş etdirilən əsl dostluq və səmimi qonşuluq münasibətləri oldu.

IRNA-ya müsahibəsində “İndi bütün bu ideya və layihələr Ermənistanda qeydiyyatdan keçmiş və onun qanunları və yurisdiksiyası altında ABŞ şirkəti tərəfindən çəkilən strateji yola çevrilib. Bəli, bu yol Ermənistanın suverenliyi altındadır” – deyən Əraqçi heç bir Amerika qoşununun İranın sərhədində yerləşməyəcəyinə və bu zaman Tehranın müəyyən etdiyi bütün qırmızı xətlərə hörmətlə yanaşılacağına əminliyini ifadə edib: “Bu, sadəcə, ABŞ-ın özəl mühəndislik şirkətidir. Yəni, təhlükəsizlik şirkəti deyil, hərbi şirkət deyil. Orada Amerikanın güc strukturu, qüvvələri yoxdur və yolun təhlükəsizliyini Ermənistan özü təmin edir. Üstəlik, ABŞ-ın özəl mühafizə şirkətlərinin belə ölkəyə girməsinə icazə verilməyəcək”.

Nəhayət, müsahibənin sonunda İranın xarici işlər naziri ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqtonda Ermənistan və Azərbaycan liderlərinin imzaladıqları birgə Bəyannaməyə də münasibət bildirib. Əraqçi həmin sənəddə göstərilən prinsiplərin – regionda sərhədlərin dəyişilməzliyinin, bölgənin bütün ölkələrinin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin Tehranın mövqeyi ilə üst-üstə düşdüyünü bildirib.

Məgər Əraqçinin bu gün dediyini Bakı hələ dörd il bundan əvvəl demirdi: “Əvvəldən bizim mövqeyimiz ondan ibarət idi ki, Qafqazda hansı addımlar atılsa da, regionun sərhədləri dəyişməməlidir. Bizim üçün vacib idi ki, Ermənistanın və heç bir başqa ölkənin suverenliyinə zərbə vurulmasın”.

***

Yeri gəlmişkən, qlobal geosiyasi prosesləri izləyən “Canadian Geopolitical Monitor” mərkəzinin hesabatında qeyd olunur ki, Zəngəzur dəhlizinə (TRİPP) dair imzalanmış sənəd hüquqi cəhətdən məcburi müqavilə sayılmasa da, Cənubi Qafqazda otuz ildən artıq davam edən münaqişəyə son qoymaq yolunda ən əhəmiyyətli uğura çevrilib. “Bu addım regiondakı geosiyasi vəziyyəti dəyişə və güc balansını Moskvadan uzaqlaşdıra, Vaşinqtona Cənubi Qafqazda görünməmiş təsir mövqeləri qazandıra bilər”, – analitik materialda deyilir.

Kanadalı analitiklərin fikrincə, Ermənistan üçün bu sövdələşmə Amerika sərmayəsinin görünməmiş miqyası deməkdir və onun ərazisindən Qərbin nəzarətində olan, buna görə də daha təhlükəsiz tranzitə zəmanət verir. Paşinyanın təsdiq etdiyi kimi, TRIPP marşrutu yeni xarici sərmayə dalğasını cəlb edərək ölkənin təhlükəsizlik sisteminin yeni elementinə çevriləcək.

Bu layihə Azərbaycan üçün İran və ya Rusiya tranzitindən asılılığı aradan qaldıraraq Naxçıvan və Türkiyə ilə birbaşa əlaqəni təmin edir. Bu fikirləri önə çəkən müəlliflər hesabatda vurğulayırlar ki, bu dəhliz, sadəcə, iqtisadi layihə deyil; onun yerləşməsi və idarə olunması ABŞ-ı strateji əhəmiyyətli regionda yeni logistik baza ilə təmin edir. Bu marşrut işə düşdükdən sonra Rusiyanın ABŞ-ın mövcudluğunu məhdudlaşdırmağa çalışdığı bir ərazidə Qərb təsirinin vizual simvoluna çevriləcək.

“Ağ Evdə avqustun 8-də baş verən hadisələr ABŞ-ın Cənubi Qafqaz siyasətində böyük dəyişiklikdən xəbər verir. Donald Trampın Azərbaycan və Ermənistan liderləri ilə görüşü uzunmüddətli öhdəliklərə və ən əsası, Vaşinqtonun regional proseslərdə fəal iştirakına səbəb olub”, – hesabat müəllifləri vurğulayırlar.

Kanadalı analitiklər hesab edirlər ki, ABŞ-ın vasitəçiliyi ilə əldə olunan razılaşma Moskva üçün geosiyasi məğlubiyyət deməkdir. Onlar məqalədə qeyd edirlər ki, Vaşinqton Rusiyanın regionda zəifləyən mövqelərindən və həm Bakının, həm də İrəvanın Moskvadan asılılığını azaltmaq istəyindən yararlanaraq Cənubi Qafqazda yaranmış təsir boşluğunu tez bir zamanda doldura bildi.

İrana gəldikdə isə, aydın məsələdir ki, rəsmi Tehran Ermənistanın ərazi bütövlüyünün, suverenliyinin gözlənilməsi barədə danışarkən bölgəyə, xüsusilə onun sərhəd zonasına üçüncü dövlətin silahlı kontingentinin (oxu – NATO -red.) ayaq açmasından çox narahat idi. Göründüyü kimi, bu əbəs narahatlıq aradan qalxdıqdan sonra İranın xarici işlər naziri Zəngəzur dəhlizinin (TRİPP) bölgənin bütün ölkələrinin inkişafına töhfə verəcəyi barədə pozitiv fikirlər söyləyir. Biz Tehranın mövqeyində müşahidə edilən bu yumşalmanı Bakının yaratdığı reallığı qəbul etməsindən doğan diplomatik nikbinlik hesab edə bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin**
**professoru, politoloq**



– Hazırda İranda kifayət qədər ziddiyyətli vəziyyət yaranıb. Bir tərəfdən, SEPAH başqa olmaqla mühafizəkar düşərgə bu gün də Azərbaycana qarşı sərt mövqedədir. Digər tərəfdən, ölkənin Prezidenti, onun xarici işlər naziri normal, sağlam düşüncəli mövqedə dayanıblar. Onlar Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı Azərbaycanın maraqlarına uyğun şəkildə açıqlamalar verir, münasibət bildirirlər. Düşünürəm ki, bizim üçün bu məsələdə, əlbəttə ki, rəsmi dairələrin mövqeyi əsas olmalıdır. Rəsmi Tehrana bu marşrutun işə düşməsinin nə ABŞ, nə də Azərbaycan tərəfdən İran üçün heç bir təhlükə yaranmayacağı izah olundu. Dəhlizi kimin qoruyacağının, kimin adına olacağının bizim üçün elə böyük əhəmiyyəti yoxdur. Əsas məqsədimiz bu yolla maneəsiz və təhlükəsiz şəkildə Azərbaycandan Naxçıvana gedib-gəlməkdir.

Əslində, Tehranın bu məsələyə ziddiyyətli yanaşması başadüşüləndir. Görünən odur ki, İİR Prezidenti və hökuməti bu layihəyə loyal yanaşır. Güman edirəm ki, bu münasibət ölkənin Ali rəhbərinin mövqeyi ilə üst-üstə düşür. Ola bilsin ki, Ali rəhbər indiki vəziyyətdə gözləmə mövqeyində durmağa üstünlük verir. Yəni, Zəngəzur dəhlizinin (TRİPP) kim tərəfindən və necə işə salınacağını, bu mərhələdə İran üçün hansısa təhlükənin yaranıb-yaranmayacağını gözləyir. Bakı bu layihənin nə indiki, nə də son mərhələsində hansısa ölkənin torpağına göz dikib. Azərbaycan hakimiyyətinin bu məsələdə mövqeyi lap əvvəldən aydın və şəffaf olub və bunu ən yüksək tribunalardan dəfələrlə səsləndirib. İndi Bakının əsas prioriteti Zəngəzur dəhlizinin (TRİPP) mümkün qədər tez açılmasıdır.

# Zaman paytaxtların “yük”ünü islah edir

## *Gürcüstan hökuməti mərkəzi idarəçiliyi qismən Kutaisiyə köçürmək barədə düşünür*

**Gürcüstan hakimiyyəti yeni “hökumət şəhəri” inşa etməyi planlaşdırır. Mərkəzi hökumət qurumlarının əksəriyyəti bu şəhərdə yerləşəcək. Bununla yanaşı, “paytaxtın tam köçürülməsi” nəzərdə tutulmur. Rəsmi məlumatlardan aydın olur ki, “yeni paytaxt” Tbilisinin inzibati ərazisi daxilində, yəni ya şəhər kənarında, ya da onun rayonlarından birində yaradılacaq. Baş nazir İrakli Kobaxidze Bələdiyyə İnkişaf Fonduna layihənin işlənməsi və smetasının hazırlanması barədə tapşırıq verib. Məqsəd idarəetmənin səmərəliliyini artırmaq, Tbilisinin daha daşıya bilmədiyi inzibati və nəqliyyat yükündən azad etməkdir.**



Məlumatda bildirilir ki, son illər Tbilisidə sürətli tikinti bumu və nəqliyyat sıxlığı müşahidə olunur. Nazirliklər və idarələr şəhər boyunca səpələnib, köhnə və yararsız binalarda fəaliyyət göstərir. Bu isə idarələrarası əlaqə və gündəlik iş rejimini çətinləşdirir. Yeni “hökumət şəhəri” bu problemlərin mərkəzləşdirilmiş və daha müasir həll yolu kimi görülür. Onu da qeyd edək ki, Gürcüstanda dövlət qurumlarının paytaxtdan köçürülməsi cəhdləri əvvəl də olub. Sabiq prezident Mixail Saakaşvili vaxtilə parlamenti Tbilisidən Kutaisiyə, Konstitusiya Məhkəməsini isə Batumiyə köçürmüşdü. Amma bu addımlar uğursuz oldu. Çünki parlamentin Kutaisidə yerləşməsi baha başa gəldi və səmərəsiz sayıldı. Nəticədə 2019-cu ildə parlament geri – Tbilisiyə qaytarıldı.

***

Bəs Bakıda bu sahədə vəziyyət necədir?

Son illər paytaxt Bakı sürətli inkişaf və böyümə dövrünü yaşayır. Şəhər həm iqtisadi, həm də mədəni sahələrdə ölkənin lokomotivi rolunu oynayır. Bakı yalnız Azərbaycanın deyil, bütövlükdə Qafqazın ən böyük və dinamik şəhərlərindən biridir. Bununla yanaşı, sürətli böyümə və şəhərin müasir tələblərə uyğunlaşması bir sıra struktural və sosial məsələləri gündəmə gətirib. Artıq infrastrukturlar ciddi problemlər yaradır. Bu, şəhərin nəqliyyat şəbəkəsinin böyüməyə uyğun olmamasından irəli gəlir. Yollarda tıxaclar, xüsusilə səhər və axşam saatlarında ciddi problemlər yaradır.

Eyni zamanda, bir çox nazirlik və idarələr köhnə binalarda yerləşir. Onların saxlanması və təmiri dövlət büdcəsinə əlavə xərclər gətirir. Paytaxtda əhalinin sürətli artımı şəhərin əsas problemlərdən biridir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü il yanvarın 1-nə paytaxtda yaşayan əhalini sayı 2 milyon 344 min 888 nəfər olub. Amma bu rəqəm yalnız rəsmi qeydiyyatda olanları əhatə edir. Bakıda qeydiyyatsız və müvəqqəti yaşayan əhalinin sayı daha çoxdur. Demoqrafik tədqiqatlar və ekspertlər tərəfindən aparılan qiymətləndirmələrə əsasən, paytaxtda əhalinin sayı rəsmi rəqəmlərdən daha çox, təxminən 3–3,5 milyon arasındadır.

Paytaxtda həyata keçirilən iri tikinti layihələri, infrastruktur inkişafı və digər iqtisadi fəaliyyətlər yeni iş yerlərinin yaranmasına səbəb olur. Bu, şəhərə işçi qüvvəsi axınını artırır. Xüsusilə, qeyri-işgüzar və qeyri-rəsmi işlərə cəlb edilən şəxslər də nəzərə alınarsa, əhali sayı rəsmi rəqəmlərdən daha çoxdur. Təhsil sahəsində də ciddi artım müşahidə olunur. Bakıdakı universitetlərə hər il minlərlə yeni tələbə qəbul olunur. Təhsil almaq məqsədilə paytaxta gələn gənclər gələcək həyatını məhz burada qurmağa çalışır və geri qayıtmırlar. Bu, Bakının demoqrafiyasında dəyişikliklərə, şəhərin yüklənməsinə səbəb olur.

***

Bəli, Bakı yalnız iş imkanları, təhsillə deyil, həm də mədəniyyət və səhiyyə sahələrindəki inkişafla da diqqət çəkir. Bu, xüsusilə təhsil və səhiyyə xidmətlərinə daha asan çıxış istəyən ailələr üçün vacib amildir. Bakı bu baxımdan da problem yaşayır. Yəni, əhali artımı Bakının urbanistik və infrastruktur problemlərini dərinləşdirir.

Yerli ekspertlərin bir çoxu problemi köklü surətdə həll etmək üçün paytaxtın köçürülməsini təklif edirlər. Yeni paytaxt kimi Gəncə, Yevlax, Kürdəmir, Xankəndinin adını çəkənlər var. Lakin bu təkliflərin reallaşması üçün həmin şəhərlərin infrastrukturu və digər inkişaf göstəriciləri tələblərə cavab vermir. Paytaxtın köçürülməsi yalnız şəhərin adının dəyişdirilməsi ilə bağlı deyil. O, bütün ölkə iqtisadiyyatı və idarəetmə strukturları ilə əlaqədar ciddi dəyişikliklər tələb edir. Məsələn, paytaxtın köçürülməsi, yeni şəhərin inkişafını sürətləndirmək üçün çoxlu sərmayə və vaxt tələb olunur. Azərbaycanın iqtisadi vəziyyəti bu cür dəyişikliklərə imkan verirmi? İlkin hesablamalara görə, paytaxtın köçürülməsi üçün ən azı 40–50 milyard dollar vəsait lazımdır. Bu gün ölkənin hərbi gücünün artırılması və azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi külli miqdarda maliyyə vəsaiti tələb olunur. Deməli, indiki şəraitdə paytaxtın köçürülməsi qeyri-realdır.

**Mövzu il bağlı iqtisadçı Əli Mustafayev XQ-yə bildirdi ki,** son illər paytaxtın köçürülməsi məsələsi müzakirə olunan əsas mövzulardan biridir: “Bakı şəhəri artıq yalnız ölkənin iqtisadi mərkəzi deyil, həm də idarəetmə və sosial xidmətlər baxımından çox böyük yük daşıyır. Lakin yeni paytaxtın qurulması məsələsi ciddi iqtisadi və infrastruktur məsələlərini gündəmə gətirir. İndiki şəraitdə paytaxtın köçürülməsi mümkün deyil. Buna baxmayaraq, ölkənin sosial-iqtisadi inkişafını təmin etmək üçün Bakıda sıxlığı azaltmaq və regionların inkişafını gücləndirmək lazımdır. Bunun üçün də iqtisadi islahatlar həyata keçirilməlidir. Yeni sənaye müəssisələri yaradılmalı, kənd təsərrüfatının inkişafına önəm verilməlidir. Yeni emal müəssisələri, aqroparklar yaradılmalıdır ki, yerli sakinlər işlə təmin olunsunlar. Təhsil sahəsi, xüsusilə universitetlərin və digər təhsil müəssisələrinin regionlara köçürülməsi gənclərin daha yaxşı təhsil imkanları əldə etməsini təmin edər. Bu, həm də yerli əmək bazarının inkişafını təşviq edər və bölgələrdə işsizliyi aradan qaldırardı. Eyni zamanda, energetika kimi sahələrin regionlara yönəldilməsi, yerli iqtisadiyyatı gücləndirər və bölgələrdə yeni iş yerlərinin yaranmasına səbəb olardı.

Sosial xidmətlər sahəsindəki islahatlar çox vacibdir. Bölgələrə sərmayə yatırımı və infrastrukturun təkmilləşdirilməsi, bu şəhərlərdə iqtisadi canlanma yaratmaqla əhalinin Bakıdan kənara köçməsinə şərait yaratmaq olar. Bir məsələyə də toxunmaq istəyirəm. Azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, vətəndaşların öz ata-baba torpaqlarına qayıdışı da paytaxtın yükünü azaldacaq. Azərbaycan üçün uzunmüddətli inkişaf strategiyası olaraq Bakının sıxlığını azaltmaq və regionları gücləndirmək önəmlidir”.

Memar Cahid Həsənov məsələ ilə bağlı açıqlamalarının birində deyib ki, Bakı yükü daşıya bilməyəcək qədər dolub: “Binalar bir-birinə sıx şəkildə yerləşir. Şəhərin vizual görünüşü, amfiteatrı, panoraması pozulur. Mənim memar kimi təklifim budur ki, tədris ocaqlarının, yataqxanaların əksəriyyəti Bakının mərkəzi rayonlarından kənara – bölgələrə çıxarılsın”.

Maraqlı təklifdir. Hər halda, Tbilisi kimi, Bakını da artıq yükdən qismən azaltmaq barədə düşünməyin vaxtı çatıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Vaşinqton sammiti – geosiyasət, təhlükəsizlik və iqtisadiyyat

*– ″Zəngəzur dəhlizi – Tramp marşrutu″nun formalaşdırılmasında yeni yanaşma ″geosiyasi yanaşma″dan imtina olunaraq nəqliyyat dəhlizinin kommersiyalaşdırılması prinsipinin prioritet olmasıdır;*

*– Azərbaycanın TRİPP-in iqtisadi baxımdan rentabelli, sərmayələrin az riskli və təhlükəsiz olması üzərində inhisarçı mövqeyi var;*

*– Paraflanmış sülh sazişi hərbi-siyasi status-kvonu qoruyur;*

*– Sülh sazişinin 9-cu maddəsi L.T.Petrosyan, R.Koçaryan və S.Sarkisyan kimi müharibə cinayətkarlarına qarşı birgə istintaq tədbirləri görmək üçün hüquqi zəmin yaradır;*

*– Dünyanın əsas güc mərkəzləri ilə strateji tərəfdaşlıq qurmaq planı uğurla başa çatdırıldı;*

*– Cənubi Qafqazın geosiyasi təhlükəsizliyi möhkəmləndi;*

*– ABŞ Zəngəzur dəhlizinə hərbi faktor kimi deyil, iqtisadi, biznes subyekti kimi daxil olur;*

*– Azərbaycan Cənubi Qafqazda hərbi-siyasi güc mərkəzi olaraq qalır və bütövlükdə regionda təhlükəsizliyin de-fakto təminatçısıdır;*

*– Bakı və İrəvan arasında düşmənçilik bir geosiyasi resurs olaraq gündəlikdən çıxaraq ləğv olundu.*



Ötən həftə baş tutmuş Vaşinqton-Bakı-İrəvan sammitinin Cənubi Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq, Avropa regionları üçün geosiyasi, iqtisadi, nəqliyyat və enerji sahələrində ciddi təsirləri var.

## Geosiyasi nəticələr

Bütövlükdə bu görüş və imzalanan sənədlər, verilmiş bəyanatlar Cənubi Qafqazın ABŞ-ın strateji maraq dairəsinə daxil olmasının, region ölkələri ilə Vaşinqtonun strateji tərəfdaşlığının rəsmiləşdirilməsidir. Bir qədər də konkretləşdirsək, bu ABŞ ilə Azərbaycanın strateji tərəfdaşlığının yeni səviyyəyə yüksəldilməsi, Ermənistanın isə ABŞ ilə strateji tərəfdaşlığının əsasının qoyulmasıdır.

Prezident İlham Əliyevin Ağ Evdəki qəbulu və imzalanan sənədlər münasibətləri ən yüksək səviyyəyə qaldırdı. Ötən həftədəki qəbulu Prezident Heydər Əliyevin Corc Buş ailəsinin rançosunda görüş ilə müqayisə etmək olar.

Prezident İlham Əliyevin Ağ Evdə Vaşinqtonu "dünyanın 1 nömrəli paytaxtı", Ağ Ev haqqında isə "dünyanın 1 nömrəli ofis" ifadəsini işlətməsi də Azərbaycanın qlobal geosiyasi prioritetlərini göstərir. Bu, o anlama gəlir ki, ABŞ Trampın rəhbərliyi ilə qlobal liderliyini qaytarıb. Və Azərbaycan geosiyasi maraqlarını Amerikanın liderliyinin bərpası ilə uzlaşdıra bildiyi üçün özünə əlverişli şərtləri təmin edib. Azərbaycan - ABŞ münasibətlərinin bu səviyyəsi regiona kənar geostrateji güclərin müdaxiləsi qarşısında çəkindirici faktor olacaq.

Beləliklə, ABŞ dünyanın geosiyasi baxımdan ən strateji nöqtəsində, ən strateji layihələrdə iştirakını təmin etdi; sülhyaratmada vacib rol oynadı, Orta dəhlizin strateji nöqtəsindəki biznes layihəsində yer aldı, yeni enerji layihələrində iştirakçıya çevrildi. Bununla da sülh və təhlükəsizliyin, nəqliyyat dəhlizinin, enerjinin istehsalı və nəqlinin tərkib hissəsi oldu.

Vaşinqtonda ABŞ ilə Ermənistan arasında TRİPP ilə bağlı imzalanmış sənədin əsas mahiyyəti odur ki, ABŞ Zəngəzur dəhlizinə hərbi faktor kimi deyil, iqtisadi, biznes subyekti kimi daxil olur. Bunun geosiyasi anlamı odur ki, Azərbaycan Cənubi Qafqazda hərbi-siyasi güc mərkəzi olaraq qalır və bütövlükdə regionda təhlükəsizliyin de-fakto təminatçısı Azərbaycan olacaq. Yəni, hərbi-siyasi qüvvələr nisbətində status-kvo Azərbaycanın xeyrinə qalır və Vaşinqtonda imzalanmış sənədlər hərbi-siyasi status-kvonu dəyişməyi nəzərdə tutmur. Hazırkı status-kvo isə sülhə, qlobal əhəmiyyətli iqtisadi layihələrə, bütün regionun birləşməsinə və iqtisadi rifaha yol açıbsa, deməli səmərəlidir. Səmərəlidirsə, qalıcı olması vacibdir.

Bu siyasi gedişlə Prezident İlham Əliyev həm Azərbaycanın, həm Cənubi Qafqazın, eyni zamanda Mərkəzi Asiyanın geosiyasi təhlükəsizliyində açar rol oynayacaq bir konfiqurasiya qurdu. Azərbaycanın liderliyi ilə Cənubi Qafqazın təhlükısizliyi daha da möhkəmləndi, nəqliyyat dəhlizi kimi perspektivi daha da aydınlaşdı və yaxşılaşdı.

Mərkəzi Asiyanın Türkiyə və Avropaya, Yaxın Şərqə siyasi və iqtisadi çıxışı asanlaşdığı üçün siyasi və iqtisadi təhlükəsizliyi də möhkəmlənmiş oldu. Yeni şərtlər Mərkəzi Asiya ölkələrinin müstəqilliyinə ciddi töhfə verir.

Azərbaycan Prezidentinin səfərdən dərhal sonra Türkiyənin Prezidenti, Pakistanın Baş naziri, Özbəkistanın, Qazaxıstanın və Türkmənistanın prezidentləri ilə, Qətər Dövlətinin Əmiri, Birləşmiş Ərəb Əmirliklərinin prezidenti, İordaniyanın Kralı, Albaniya və Ukraynanın Prezidentləri, həmçinin Aİ Şurasının Prezidenti ilə müzakirə etməsi əldə olunmuş nəticələrin təsir dairəsinin miqyasını göstərir.

## Əsas güc mərkəzləri ilə strateji tərəfdaşlıq nə vəd edir

Azərbaycan Aİ ilə enerji və nəqliyyat sahəsində, ÇXR ilə bütün sahələrdə, indi isə ABŞ ilə ən fundamental sahələri əhatə edəcək strateji tərəfdaşlıq yaratmaqla qlobal səviyyədə geosiyasi və iqtisadi təhlükəsizliyini təmin etməyə tam nail oldu.

Mövcud tarazlaşdırılmış şərtlər daxilində Cənubi Qafqazın, o cümlədən regionun lokomotivi olan Azərbaycanın işlərinə hər hansı neqativ müdaxilə qeyri-mümkündür.

Region ətrafında formalaşmış yeni qlobal situasiya Azərbaycan Prezidentinin Mərkəzi Asiya + Cənubi Qafqaz və Türkiyənin dərin inteqrasiyası, TDT-nin yeni geostrateji güc mərkəzinə çevrilməsinə dair ideyası üçün də əlverişli qlobal və regional təhlükəsizlik şərtlərini yaradır. İndi TDT-nin siyasi, iqtisadi, hərbi inteqrasiyası və qlobal bir güc mərkəzinə çevrilməsi üçün ideal mənzərə formalaşdırılıb.

Prezident İlham Əliyevin 3 ölkənin birliyini nəzərdə tutan "Qafqaz evi" ideyasının da qarşısında demək olar ki, bütün siyasi maneələr aradan qaldırıldı.

Azərbaycan Prezidenti son iki il ərzində C.Bayden administrasiyasının, Fransanın indiki hökumətinin və Avropa İttifaqının bəzi strukturlarının Ermənistanı silahlandırmaqla yeni hərbi forpost yaratmaq, Azərbaycana hərbi təzyiq göstərmək, Cənubi Qafqazda yeni ayırıcı xətt qurmaq kimi planlarına qarşı mübarizə apararaq onları puça çıxara, yeni şərtlər formalaşdıra bildi. Bu gərgin siyasət nəticəsində silah və ayırıcı planlarla gələnləri qovmaq, hamı üçün sərfəli olan iqtisadi layihələrlə gələnlərə isə qapı açmaq mümkün oldu. Bütün destruktiv güc mərkəzləri Cənubi Qafqazdan kənarda qaldı. Bu isə təkcə geosiyasi məğlubiyyət deyil, həm də dünyanın nəqliyyat və enerji arteriyasından kənarda qalmaq, yeni güc mərkəzi ilə əlverişli əməkdaşlıq imkanından məhrum olmaq deməkdir.

Azərbaycan bu şərtlər daxilində qlobal qarşıdurmadan sülh və əməkdaşlıq nöqtəsinə çevrilir.

Azərbaycanın ABS-la strateji əməkdaslığın nəyin ki, başqa tərəfdaşların maraqlarına zidd deyil, əksinə, həm regional, həm də qlobal səviyyələrdə ümumi maraqlara uyğundur. Azərbaycan Prezidenti "Fox News" telekanalına verdiyi müsahibəsində bu məqamı xüsusi vurğulayıb.

## Azərbaycan və Ermənistan: düşmənçilikdən tərəfdaşlığa

Avqustun 8-dən Vaşinqtonda Ermənistanla Azərbaycan arasında ziddiyyətlər və düşmənçilikdən yararlanmaq erası başa çatdı. Yardılmış yeni şərtlər iki ölkəni düşməndən tərəfdaşa çevirir. Ortada hər iki tərəfə xeyir gətirəcək birgə neft, qaz, dəmir və avtomobil yolları, elektrik xətləri layihələrinin planları var. Belə layihələr isə beynəlxalq münasibətlərdə möhkəm və uzunmüddətli tərəfdaşlığın iqtisadi təməlidir. Bu layihələr təkcə ABŞ-Azərbaycan və ABŞ-Ermənistan strateji tərəfdaşlığının iqtisadi-infrastruktur təməli deyil, istər-istəməz həm də Azərbaycanla Ermənistanı ortaq strateji infrastruktur layihələri ilə birləşdirəcək.

BTC neft, BTƏ qaz kəmərləri, BTQ dəmiryolu, Avropaya Qara dəniz vasitəsilə kabel xətti Azərbaycanla Gürcüstanı necə strateji tərəfdaşa, daha sonra isə strateji müttəfiqlərə çevirmişdisə, oxşar layihələrin Ermənistanla da gerçəkləşməsi üçün tarixi şərait yaranıb.

Prezident İlham Əliyevin N.Paşinyanla birlikdə Nobel komitəsinə müraciət üzərində birgə işləməklə bağlı təklifi, N.Paşinyana ″erməni həmkarım″ deyə xitabı, ″birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik″ kimi bəyanatları birlikdə ortaq siyasət yürütməyin mümkünlüyünün parlaq nümunəsidir və çox ciddi bir psixoloji baryerin keçildiyini sübutudur.

Hətta Prezident İlham Əliyev N.Paşinyana etimadını da ifadə etməklə yanaşı ikisinin addından bəyanat verdi; ″Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək″.

Baş nazir Nikol Paşinyan dərhal Azərbaycan Prezidentinin iki ölkə rəhbərliyinin adından verdiyi bəyanatla həmrəyliyini bildirdi. ″...Tam razıyam. Heç bir əlavəm də yoxdur″ dedi.

## "Tramp marşrutu" və Azərbaycanın mövqeyi

"Zəngəzur dəhlizi – Tramp marşrutu"-nun formalaşdırılmasına yeni yanaşma "geosiyasi yanaşma"dan imtina olunaraq nəqliyyat dəhlizinin kommersiyalaşdırılması prinsipinin prioritet olmasıdır. Məsələnin ″kommersiyalaşdırılması″ tərəflərin maraqlarını əllə toxunula biləcək vəziyyətə gətirəcək. Məhz kommersiya prinsipinin önə çəkilməsi vəziyyətin gərginliyini azaldır.

İndiyə qədər bəzi qüvvələrin ″geosiyasi faktoru″ önə çəkməklə vəziyyəti gərginləşdirmək strategiyası puça çıxarıldı.

D.Tramp rasional, praqmatik bir iqtisadçı, beynəlxalq siyasətdə ″real politic″ şərtlərinə qətiyyətlə əməl edən siyasətçidir. O həm iqtisadiyyatda, həm də beynəlxalq siyasətdə qətiyyətli bir realistdir.

Odur ki, Amerikanın ″Tramp marşrutu″ ilə bağlı siyasətinin də realist olacağı şübhə doğurmur. Bəs bu kontekstdə realizm özündə nələri ehtiva edə bilər?

Real vəziyyət odur ki, ″Tramp marşrutu″na dair anlaşma Ermənistanla ABŞ arasında imzalansa da, TRİPP-in əsas tərəfdaşları Azərbaycan və Türkiyədir. Daha doğrusu, TRİPP-in rentabelli olması Azərbaycan və Türkiyənin ona olan münasibətindən birbaşa asılıdır. Başqa sözlə, Azərbaycan TRİPP-in fəaliyyəti üzərində həm coğrafi, həm də yüklərin yönləndirilməsi, idarəçiliyi, biznes baxımından inhisarçı tərəfdir. Bu o deməkdir ki, TRİPP-in infrastrukturuna yatırılması zəruri olan investisiyanın geriyə qayıtması və gəlir gətirməsi üçün Azərbaycanın bu marşrutda köklü maraqları olmalıdır. Belə ki, Azərbaycan TRİPP-in iqtisadi baxımdan rentabelli olmasında da maraqlı tərəfdaşa çevrilməsi ABŞ üçün vacibdir. Azərbaycanın ABŞ şirkətləri ilə birlikdə TRİPP-in benefisiarı olaraq çıxış etməsi ölkəmizi məntiqi olaraq marşrutun fasiləsiz işləməsində və təhlükəsizliyində də maraqlı tərəfə çevirərdi.

Nəzəri olaraq, tərəflərdən biri hər hansı bir layihədə maraqlarının təmin olunması səviyyəsindən tam razı deyilsə, bu halda ümumi investisiya risklərinin yüksəlməsi labüddür.

İstənilən halda marşruta sərmayə yatırılması kommersiya məsələsidir və çox böyük ehtimalla tərəflər bu kontekstdən çıxış edəcəklər.

Yeri gəlmişkən, D.Tramp administrasiyası və ümumiyyətlə Amerika şirkətləri ənənəvi olaraq "win - win" prinsipindən çıxış edərək, maraqların qarşılıqlı təminatına üstünlük verir. Ümumiyyətlə, iştirakçı tərəflərin hər birinin kifayət qədər maraqlı olması bütün növ müqavilələrin uzunömürlülük səbəbidir.

Əks təqdirdə, avtomatik olaraq infrastruktura yatırılan investisiyaların risk səviyyəsi yüksək qiymətləndiriləcək. Odur ki, çox böyük ehtimalla ABŞ şikətləri marşrutun Ermənistan ərazisindən keçən hissəsində infrastruktura birbaşa investisiya yatırmağa deyil, operatorluğa üstünlük verə bilər. "Reuters"in məlumatına görə marşruta maraq göstərən 9 şirkətin 3-ü Amerika şirkətidir. Başqa bir məlumata görə isə 3 ABŞ şirkəti TRİPP-in operatorluğunu həyata keçirmək niyyətlərini ifadə ediblər. ABŞ-ın öz növbəsində ərazini infrastruktur və idarəçilik üçün konsorsiuma subarendaya verəcəyi ehtimal olunur.

1994-cü ildən, ″Əsrin müqaviləsi″ndən başlayan ABŞ və Azərbaycan şirkətlərinin birgə işi əsl beynəlxalq etimad və əməkdaşlıq nümunəsidir. Ötən 31 il ərzində ABŞ və Azərbaycan şirkətlərinin həyata keçirdiyi birgə layihələr bütün mümkün təhlükəsizlik, siyasi, hüquqi və iqtisadi sınaqlardan uğurla çıxıb. 31 illik belə bir tərəfdaşlıq təcrübəsi TRİPP-in formalaşdırılması və fəaliyyəti zamanı da səmərəli ola bilər.

N.Paşinyanın etiraf etdiyinə görə, Ermənistanın hətta məktəb tikmək üçün vəsait tapmaqda çətinlik çəkdiyi bir dövrdə neft və qaz kəmərlərini inşa etmək üçün investisiyası və idarəçilik təcrübəsi də yoxdur.

Başqa tərəfdən dəmiryolu, qaz və neft kəmərlərini, elektrik xətlərini Azərbaycandan yaxşı kim inşa və idarə edə bilər ki?

Zəngəzurda infrastruktura uzunmüddətli, iri sərmayələr yatırıb, onun rentabelli və təhlükəsiz işləməsi qeyd olunan konsorsiumda Azərbaycanın aparıcı rol oynaması riskin azalması, gəlirlərin isə artması ilə nəticələnərdi.

Bütün bu coğrafi, iqtisadi, kommersiya səbəbləri belə deməyə əsas verir ki, ABŞ şirkətlərinin ″Tramp marşrutu″ndakı əsas sərmayədar və payçı tərəfdaşlarının Azərbaycan şirkətləri olması iqtisadi məntiqdən doğur.

Odur ki, TRİPP-in infrastrukturu, sərmayələr, mülkiyyət və idarəçilik aspektləri, iş rejimi, təhlükəsizliyin təminatı kimi təfərrüatların müzakirəsi zamanı bu başlıca məqamların nəzərə alınması zəruridir.

Üçtərəfli bəyanatda 3 kateqoriyadan olan yükdaşımaları müəyyənləşib – 1) dövlətlərdaxili, 2) dövlətlərarası, 3) beynəlxalq yükdaşımalar. Ən vacib məqam Azərbaycanın əsas hissəsindən Naxçıvana ″maneəsiz gediş-gəliş″prinsipi ilə ″dövlətlərdaxili yüklər″ kateqoriyasının müəyyənləşməsi başlıca məqsədə nail olunmasının əlamətləridir. Naxçıvanla əlaqələr ″dövlətlərdaxili daşımalar″ kateqoriyasına adiddr.

## Paraflanmış sülh sazişi

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin parafladıqları sülh sazişinin baza fəlsəfəsi gələcəkdə Ermənistanda baş qaldıra biləcək revanşizmə qarşı hüquqi sərhədd yaratmaqdır. Azərbaycan tərəfi 200 illik tarixi təcrübədən çıxış edərək separatizm, ərazi bütövlüyünə qəsd və ikitərəfli münasibətlərdə üçüncü tərəfin iştirakı, üçüncü tərəflərin təhriki ilə aqressiv siyasətə meyllənmənin qarşısını almaq hədəfinə nail olmağa çalışıb. Bu yanaşma Ermənistanın daxilində separatizm meyllərinin baş qaldırmasının, belə meyllər ətrafında üçüncü tərəflərlə işbirliyini hüquqi cəhətdən mümkünsüz edir. Üçüncü tərəflər isə Cənubi Qafqaza müdaxilə üçün separatizm ideyasından istifadə imkanlarından məhrum olunur. Beləki sülh sazişində siyasi revanşizmi qadağan edən maddələr var.

## Siyasi revanşizm qadağan olunur

**Sülh sazişində;**

*- Separatizm pislənir;*

*- Hazırda bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığı və gələcəkdə belə iddiaların qaldırılmayacağı təsdiq olunur;*

*- Bir-birinin ″ərazi bütövlüyü və ya siyasi birliyini tamamilə və ya qismən parçalamağa yönəlmiş hər hansı bir hərəkətə, o cümlədən belə hərəkətlərin planlaşdırılmasına, hazırlanmasına, həvəsləndirilməsinə və dəstəklənməsinə yol verməyəcəkləri″ haqda öhdəlik götürür.*

## Hərbi strateji status-kvonu təmin edən maddələr

Siyasi revanşizmi hərbi ittifaqlardan və hücum mövqelərindən məhrum edən maddələrə gəldikdə isə sülh sazişi ″öz ərazilərindən hər hansı üçüncü tərəfin digər Tərəfə qarşı BMT Nizamnaməsinə zidd olaraq güc tətbiq etmək üçün istifadə edilməsinə imkan verməyəcəklərini təsdiq edir″.

7-ci maddədə qeyd olunur ki, ″Tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər″.

Bu maddə Ermənistanda revanşist meyllərin baş qaldıracağı təqdirdə üçüncü tərəfin hərbi hissələrinin Azərbaycanla sərhəddə toplamasını qadağan edir. Bu maddə Azərbaycana qarşı hərbi alyanslar yaradılmasını və mövcud hərbi ittifaqlardan Azərbaycana qarşı birbaşa istifadəni neytrallaşdırır.

Nəhayət, ″…sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, təhlükəsizlik və etimad-quruculuğu tədbirlərini qarşılıqlı razılaşdırılmış halda həyata keçirilməsini″ nəzərdə tutan müddəa da hərbi strateji dərinliyin nəzarət altına saxlanmasına xidmət edir.

Sülh sazişi və üçtərəfli bəyanat həm silahlanma, həm hərbi ittifaqlardan istifadə, həm hərbi hissələrin yerləşdirilməsi baxımından hərbi-siyasi status -kvonu təmin etməyə yönəlib.

## Doqquzuncu maddə – hərbi canilər hədəfdə

Sülh sazişinin 9-cu maddəsi L.T.Petrosyan, R.Koçaryan və S.Sarkisyan kimi müharibə cinayətkarlarına qarşı birgə istintaq tədbirləri görmək üçün hüquqi zəmin yaradır. Həmin maddədə qeyd olunur ki, tərəflər itkin düşmüş və məcburi yoxaçıxma ilə bağlı halların araşdırılmasında, ″müvafiq olduğu təqdirdə, onların qalıqlarının axtarılması və geri qaytarılmasının, zəruri istintaq tədbirləri yolu ilə həmin şəxslərə münasibətdə ədalətin təmin edilməsinin barışıq və etimadın qurulması vasitəsi kimi əhəmiyyətini qəbul edirlər. Bununla əlaqəli müvafiq modallıqlar müzakirə ediləcək və ayrıca sazişdə təfərrüatlı şəkildə razılaşdırılacaqdır″. Bu maddə nəinki revanşistlərin yuxusunu qaçıracaq, eyni zamanda onların siyasi fəaliyyətinə son qoyacaq çox mühüm məqamdır. 9-cu maddənin tam tətbiqi nəticəsində Koçaryan, Sarkisyan və Ohanyan kimi müharibə canilərinin mühakiməsi bir daha belə faciələrin baş verməyəcəyinin möhkəm siyasi zəmanəti olar, hüquqi presedent yaradardı.

***İbrahim MƏMMƏDOV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Diplomatiya meydanında uduzan olmayacaq!

*Sülh yolunda yeni mərhələyə xeyir-dua verildi*



**Avqustun 8-də Ağ Evdə, Amerika Birləşmiş Ştatlarının (ABŞ) təşəbbüsü və vasitəçiliyi ilə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması, eləcə də Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması sülhə gedən yolda mühüm tarixi hadisədir.**

Tərəflər bununla yalnız sülhə deyil, bütövlükdə regionun yeni inkişaf mərhələsinə qədəm qoymasına imza atdıqlarını göstərdilər. Bununla da iki xalq arasında qarşılıqlı anlaşma, birgə əməkdaşlıq, təhlükəsizlik və rifahın təmin olunması üçün möhkəm təməl atıldı.

Qalib tərəf olmağına rəğmən, daim sülh və əməkdaşlığın tərəfdarı olan ölkəmiz tərəflər arasında etimadın möhkəmləndirilməsi, siyasi-iqtisadi münasibətlərin qurulması, ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-kommunikasiya xətlərinin bərpası üçün əməkdaşlığa hər zaman hazır olduğunu bəyan etmişdir.

Bu baxımdan, bu tarixi sənəd regionun sabit və çiçəklənən gələcəyi naminə davamlı sülhə, qarşılıqlı etimada və uzunmüddətli əməkdaşlığa doğru atılmış mühüm addımdır.

Başqa sözlə, Birgə Bəyannamə mövcud postmüharibə dövründə Cənubi Qafqaz regionunun mürəkkəb geosiyasi reallıqları fonunda Sülh sazişinə aparan və konkret yol xəritəsini özündə ehtiva edən önəmli sənəddir.

Onu da qeyd edək ki, hadisələrin bu mərhələyə gəlib çatması heç də asan və təsadüfi olmamışdır. Belə ki, illərlə davam edən münaqişədən sonra əldə edilmiş bu uğur, əlbəttə ki, Prezident İlham Əliyevin istər 44 günlük Vətən müharibəsi, istərsə də bir günlük anti-terror əməliyyatı zamanı döyüş meydanında Ali Baş Komandan kimi qazandığı parlaq Zəfərin məntiqi davamı olaraq, diplomatiya sahəsində göstərdiyi qətiyyətli və uzaqgörən siyasətin, sarsılmaz liderliyin yekun nəticəsidir.

Məlumdur ki, sülhü qorumaq, bəzən qələbə qazanmaqdan daha çətindir. Bu mənada, cənab Prezidentin bu səfəri yalnız iki ölkə arasında münasibətlərin yeni səhifəsinin açılması baxımından deyil, eyni zamanda uzun illərdən bəri ölkəmizi zəifləməyə çalışan, onu müəyyən güzəştlərə vadar etməklə öz milli maraqlarından əl çəkməsini istəyən və beləliklə, sülh prosesini pozaraq bölgəni yenidən gərginliyə sürükləmək niyyətində olan beynəlxalq güclərin çirkin təzyiq siyasətini açıq şəkildə məğlubiyyətə düçar etdi.

Müdrik dövlət xadimi İlham Əliyev Azərbaycan əsgərinin döyüş meydanında qazandığı parlaq Zəfəri diplomatik sferaya - danışıqlar masasına daşıyaraq rəsmiləşdirdi. Beləliklə, qlobal güclərə qələbədən sülhə keçidin yeni reallığını qəbul etdirməyi bacardı, beynəlxalq münasibətlərdə ölkəmizin mövqeyini möhkəmləndirdi.

Bu baxımdan, əldə olunmuş bu uğur təkcə Zəfərin deyil, eyni zamanda sülhün memarı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyasının qələbə günü kimi tarixə düşəcək böyük və əlamətdar hadisədir.

Qeyd edək ki, bu səfər bir sıra önəmli tarixi hadisələrlə də yadda qaldı. Bunlardan biri ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin ünvanlanması idi.

Bu müraciət, tərəflərin Vaşinqtonda keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamədə də öz əksini tapmışdır.

Beləliklə, ölkəmizin Sülh sazişinin şərtlərindən biri kimi irəli sürdüyü bu tələb də yerinə yetirilmiş oldu və nəticədə səmərəsiz Minsk Qrupu tarixə qovuşdu.

Birgə Bəyannamədə region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin (yeni adı ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) yaradılması kimi mühüm müddəalar da öz əksini tapmışdır. Xatırladaq ki, bu tələb də Sülh Sazişinin imzalanması üçün Ermənistan qarşısında Azərbaycan tərəfinin prinsipial şərtlərindən biri idi. Belə ki, cənab Prezident İlham Əliyev daim çıxışlarında da Zəngəzur dəhlizinin mütləq şəkildə reallaşacağını, yalnız bunun zaman məsələsi olduğunu vurğulamışdır.

Beləliklə, dövlət başçımızın müdrik siyasəti nəticəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması haqqında razılaşmanın tələbləri də sənəddə öz təsdiqini tapmışdır. Bu həm də dəhlizin reallaşmasında gələcəkdə yarana biləcək istənilən situasiyaya qarşı ABŞ-ın əsas qarant olduğunun göstəricisidir.

Qeyd edək ki, 42 kilometrlik bu yol yalnız avtomobil və dəmir yolu bağlantıları üçün deyil, eyni zamanda enerji və telekommunikasiya xətlərinin keçidinə də geniş imkanlar yaradacaqdır.

Avropanı Asiya ilə birləşdirəcək bu unikal yol regionun enerji və nəqliyyat xəritəsini tamamilə dəyişəcək, ölkələr arasında ticarət əlaqələrini sürətləndirəcək və nəticədə ölkəmiz tranzit ölkə kimi ixrac imkanlarını artıraraq dünya iqtisadiyyatına daha sürətli şəkildə inteqrasiya olunacaqdır.

Zəngəzur dəhlizi (TRİPP) Türk Birliyi ölkələri arasında mövcud münasibətləri də dərinləşdirərək, Azərbaycanı Türkiyə və digər Türk dövlətləri ilə daha da sıx birləşdirəcəkdir.

Beləliklə, Cənubi Qafqazın geoiqtisadi xəritəsini dəyişdirə biləcək potensiala malik Zəngəzur dəhlizi (TRİPP) bir növ regionda hökmranlıq etmək istəyən tərəflərin mənfi təsirini zəiflədərək mövcud güc balansını da formalaşdıracaqdır.

Onu da qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın dəvəti ilə baş tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Vaşinqtona səfəri yalnız regionda davamlı sülh və sabitliyin bərqərar olması baxımından deyil, həm də Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişafı üçün böyük tarixi əhəmiyyət daşıyır.

Belə ki, iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məsələlərinin müzakirəsi və bu məqsədlə "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanması regionun lider ölkəsi olan Azərbaycanla münasibətlərin ABŞ üçün nə qədər önəmli strateji əhəmiyyət daşıdığını göstərir.

Qeyd edək ki, iki ölkə arasında planlaşdırılan gələcək əməkdaşlıq təkcə siyasi sahəni deyil, eyni zamanda iqtisadi, ticarət, enerji, süni intelekt və rəqəmsal infrastruktur, hərbi və tranzit əhəmiyyətli regional bağlantılar kimi geniş sferaları əhatə edir.

İlk addım olaraq SOCAR-la ABŞ-ın "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanması oldu. Sənəd, şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirməklə yanaşı, Azərbaycan Respublikasında həm ənənəvi, həm də qeyri-ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Bu, bir daha sübut edir ki, hazırda dünyanın 14 ölkəsinə mavi qaz nəql edən və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanla enerji sahəsində uzunmüddətli birgə əməkdaşlıq ABŞ üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Ölkəmiz üçün digər önəmli strateji qərarlardan biri də 1992-ci ildən bəri ABŞ tərəfindən haqsız şəkildə tətbiq edilən, keçmişin mənfi mirası – 907-ci düzəlişin ləğvidir ki, bu da olduqca önəmli tarixi hadisədir. Bu düzəliş 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na əlavə edilən Birləşmiş Ştatların birbaşa dövlət yardımını qadağan edən qanunvericilik aktı idi.

Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin statistik göstəricilərinə əsasən, Azərbaycan ABŞ-dən 20 milyon dollar yardım aldığı halda, bu göstərici Ermənistan üçün 92 milyon dollar, Gürcüstan üçün isə 180 milyon dollar təşkil etmişdir. Hazırda müharibə şəraitində olan və işğalla mübarizə aparan Ukrayna hökuməti isə ABŞ-dan on milyardlarla dollar yardım almaqdadır. Lakin çox təəssüflər olsun ki, vaxtilə bu şəraitlə üzləşən Azərbaycan isə bu müddətdə tamam başqa münasibətlə qarşılaşmışdı.

Lakin erməni diasporlarının oyuncağına çevrilmiş öncəki ABŞ hökumətlərindən fərqli olaraq, Donald Tramp administrasiyası 33 ildir qüvvədə olan və ABŞ qanunvericiliyinə, demokratiyaya qara ləkə gətirmiş bu yalnış və ədalətsiz qərarı ləğv etməklə ABŞ–Azərbaycan münasibətlərində itirilmiş güvən və etimadı bərpa etdi.

Beləliklə, yüksək liderlik keyfiyyətlərinə malik Prezident İlham Əliyevin çoxşaxəli siyasi-diplomatik uğurları nəticəsində bu gün nəinki sülh prosesində, eyni zamanda Azərbaycan–Amerika münasibətlərində də yeni və parlaq səhifə açıldı.

Nəticə etibarilə, atılan bu addımlar, imzalanan sənədlər yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında tarixi sülh müqaviləsinin imzalanmasına və Cənubi Qafqazın gələcək siyasi-iqtisadi strukturunun formalaşmasına töhfə verəcəkdir.

Bu, yalnız münaqişənin sonu deyil, həm də haqq-ədalətin zəfəri – yeni əməkdaşlıq, inkişaf və sabitlik dövrünün başlanğıcıdır.

Beləliklə, bu gün biz azərbaycanlılar qürurla deyə bilərik: Azərbaycan qalibdir – həm döyüşdə, həm də diplomatiyada!

*Coşqun MƏMMƏDOV,*
*AMEA Rəyasət Heyətinin elmi katibi*

**Prezident İlham Əliyev ABŞ-a səfəri zamanı bu ölkənin "Fox News" telekanalına müsahibəsində 2024-cü ilin dekabrında "Azərbaycan Hava Yolları"nın 8243 saylı təyyarəsinin vurulmasından söz açarkən bildirib ki, ölkəmiz hadisənin qəsdən törədildiyi qənaətində deyil: "Biz, sadəcə, bunu etiraf etməyi, həmin cinayəti törədənləri cəzalandırmağı və tam təzminat ödənilməsini tələb etdik".**

Əslində, rəsmi Baki təyyarəmizin vurulduğu ilk gündən eyni tələbi səsləndirib. Prezident İlham Əliyev ötən il dekabrın 29-da Azərbaycan Televiziyasına müsahibəsində bunları bildirmişdi: "Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə də günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək - bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci üç gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik".

Məhz bu səbəbdən yerinə yetirilmir. Baxmayaraq ki, ölkənin ayrı-ayrı rəsmiləri bəyanatlarında dostluq və mehriban qonşuluq zəngulələri vururlar. Vururlar, digər yandan isə Rusiyanın, belə demək mümkünsə, propaqanda iyrəncləri sayılan solovyovlar, simonyanlar, zatulinlər, eləcə də Dövlət Dumasının qurulevləri Azərbaycana hücumdan, Bakıya "Oreşnik" tuşlamaqdan danışırlar. Hazırda onların nəzərlərində 1990-cı ilin 20 yanvarında olduğu kimi, paytaxtımızın küçələrində cövlan edən rus tankları var. Axı imperiya xislətli psixopatlar aqressiv davranışdan həzz alırlar.

Digər məqama diqqət yetirək. Ayaqyoluna gedəndə belə mərkəzdən icazə alan solovyovlar anti-Azərbaycan ritorikanı boşuna tündləşdirməyiblər. Məsələ ondadır ki, ölkəmiz suverenliyini bərpa etdikdən və 2020-ci ilin 44 günlük müharibəsinin nəticəsi olaraq imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat, faktiki olaraq arxivə gömüldükdən sonra Rusiyanın Cənubi Qafqazdan yapışmaq üçün mütləq forposta ehtiyac var. Həmin vaxtadək Kremlin Qarabağ kartından yararlanaraq, Ermənistanı öz tərəfinə çəkmək cəhdləri uğursuz olmuşdu.

# Təyyarə rüsvayçılığı: Rusiya məsuliyyətdən niyə yayınır?

*Azərbaycanın qəti mövqeyi, Cənubi Qafqaz və Moskva üçün bəhanə*

Dövlətimizin başçısı müsahibəsində, həmçinin təfərrüatlara vararaq onu da demişdi ki, Azərbaycan öz tələblərini Rusiya tərəfinə açıq şəkildə bildirib. "Dekabrın 27-də (2024-cü il – red.) artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə



təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir", - deyən Prezident İlham Əliyev fikrini bir qədər də qüvvələndirmişdi: "Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək".

Əlbəttə, ötən müddətdə Moskva Bakının şərtlərini qəbul etmədi və indi də etmir. Əvəzində görürük ki, Rusiyada məsələyə fərqli don geydirənlər tapılır. Bələlərinin iddialarının məğzində dayanan məqam budur: Guya Azərbaycan öz kursunu dəyişdirmək istəyirdi, təyyarə olayı ona bəhanə qazandırdı.

İddia son dərəcə gülünc və bəsitdir. Birincisi, Azərbaycan müstəqillik illərində həmişə balanslı siyasi xətt yürüdüb. Yəni, Qərblə və Rusiya ilə eyni məsafədə dayanıb, müfəssəl şəkildə özünün maraq və mənafelərinə nəzərən hərəkət edib. Nəinki Rusiya, heç bir dövlət ölkəmizi səhv salmamalıdır. Amma Moskvada bunu düşünmədilər və düşünmürlər. Belə düşüncəsizliyin isə konkret səbəbi var və həmin səbəbə görə, Azərbaycanın Rusiya ilə deyil, Rusiyanın Azərbaycan ilə münasibətləri pozmağa maraqlı olduğunu söyləyə bilərik.

Məsələ ondadır ki, 2023-cü ilin sonunda Azərbaycan Qarabağ üzərində tam hakimiyyətini bərpa etmişdi. 2024-cü ildən Rusiya sülhməramlıları Qarabağdan çıxmaq məcburiyyətində qalmışdılar. Moskvada mövcud durumun Azərbaycana ənənəvi təzyiq və təsir rıçaqlarını sıradan çıxardığının fərqinə vardılar. Fərqinə vardılar və hərəkətə keçdilər. Hərəkət üçün bəhanə isə təyyarə olayı oldu.

Rəsmi Moskva yaxşı başa düşür ki, Azərbaycan özünün Prezident İlham Əliyevin dili ilə açıqlanmış prinsiplərindən geri dönməyəcək. Çünki ortada şərəf məsələsi var. Ola bilməz ki, bir dövlətin sərnişin təyyarəsinə atəş açısan və bunun məsuliyyətindən yayınasan?

Əgər Rusiya susqunluğunu qoruyursa, deməli, ona sərf edən Azərbaycanla gərginliyin saxlanılmasıdır. Görünür, tələblərimiz

Eyni zamanda, rəsmi İrəvan Moskva ilə münasibətləri o qədər gərgin saxlamışdı ki, ikincinin hansısa əks addımlar atması mümkünsüzləşmişdi. Görünür, Rusiyadakı erməni amili də Ermənistana qarşı sərt davranmağa imkan verməmişdi. O zaman qalırdı Azərbaycan.

Bəli, Bakı ilə münasibətləri gərgin saxlamaq həm də Moskvanın güc tətbiqi ritorikasını daim diri tutması üçün vacibdir. Baxın, jurnalistika adına utanc sayılan Vladimir Solovyov NATO-nun Xəzər dənizində, guya, hərbi baza yaratmaq istədiyini iddia edir və bunun Cənubi Qafqazda Ukraynadakı kimi, xüsusi hərbi əməliyyat keçirmək üçün əsas formalaşdırdığı düşüncəsini yayır. Deməli, Kreml Azərbaycana qarşı intervensiya hazırlığındadır. Ona görə ona ölkəmizin davranışlarında "səhvlər tapmaq" lazımdır. Solovyovlar özlərini bu məqsədə köklәyiblər. Görünür, qarşıya həm də hücumu leqallaşdırmaq, onun, bir növ, qaçılmaza çevrildiyini göstərmək vəzifəsi qoyulub. Məntiqi nəticə onu deyir ki, belə bir durumda Rusiyanın təyyarə olayına görə ölkəmizdən üzrxahlığı mümkünsüzdür.

Yəni ki, Prezident İlham Əliyev ABŞ-a səfəri zamanı bu ölkənin "Fox News" telekanalına müsahibəsində bir daha Azərbaycanın şərtlərini yada salmaqla, Rusiyaya qonşuluq jesti edir və Moskvanı Bakı ilə konfrantasiyadan uzaq durmağa çağırır. Əlbəttə, bu sadə çağırışda Azərbaycanın müstəqil siyasətinə hörmət kazusu da var.

Ölkəmiz Rusiya ilə münasibətlərin qaydasına salınması xüsusunda başqa şərt irəli sürmürsə, bu, o deməkdir ki, Bakının Qərblə, o cümlədən ABŞ-la yaxınlığı heç də balanslı xətdən uzaqlıq kimi dəyərləndirilməməlidir. Bildirdiklərimiz fonunda isə yekun nəticəyə gələrək deyək ki, indi qalır Rusiyanın ənənəvi imperialist baxışlardan uzaq duraraq, praqmatik və rasional davranması. Nəzərə alaq ki, bu davranış Kreml üçün Cənubi Qafqazda yaranmış yeni geosiyasi mühitdə iştirak imkanıdır. İmkan dəyərləndiriləcəkmi, təyyarə olayına zəruri qiymət verilib Azərbaycanın tələbləri yerinə yetiriləcəkmi, bunu zaman göstərəcək. Necə deyərlər, yaşayarıq görərik.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Taxıl biçini marafonu sona çatır



(əvvəli 1-ci səhifədə)

Zamanında nəvaziş göstərib sığal çəkdiyi torpaq da borclu qalmayaraq kəndlinin zəhmətinin əvəzini birə min qaytarır, necə deyərlər, sahibinin üzünü ağardır. Eyni zamanda, dövlətin aqrar sektorun inkişafına verdiyi dəstək də sahibkarın karına gəlir, onu torpağa möhkəm bağlayır. Bu da son nəticədə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun artmasına səbəb olur.

Bu baxımdan kənd təsərrüfatının vacib sahələrindən sayılan taxılçılıqda da son illər uğurlu nəticələr əldə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin məhsulu üçün ölkə üzrə 939,1 min hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər əkilib. Mövsümün əvvəlindən taxılçılıq sahəsində həyata keçirilən düzgün aqrotexniki tədbirlər nəticəsində zəmilərdə bol məhsul yetişdirilib. İyunun ilk günlərindən başlanan dənli və dənli paxlalı bitkilərin kütləvi biçini isə artıq başa çatmaq üzrədir. Avqust ayının 12-nə olan operativ məlumata əsasən, ötən müddətdə 924,4 min hektar sahənin məhsulu yığılıb. Bu da ümumi əkin sahələrinin 98,4 faizi deməkdir.

Komitənin məlumatına əsasən, mövsümün əvvəlindən sahələrdən 2 milyon 971,8 min ton məhsul toplanıb. Taxıl sahələrinin orta məhsuldarlıığı isə 32,1 sentner təşkil edib. Məhsulun 1 milyon 582,8 min tonunu və ya 53,3 faizini buğda, 1 milyon 349,9 min tonunu (45,4 faizini) arpa, 39,1 min tonunu (1,3 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil edib.

Ümumilikdə, avqustun 12-dək ölkənin 26 rayonunda dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin biçini tam başa çatıb. 30 rayonda taxıl sahələrinin 90 faizindən çoxu biçilib. Digər rayonlarda isə biçinin aparılması səviyyəsi 90 faizdən aşağı olub. Mövsüm ərzində ən yüksək məhsuldarlıq Hacıqabul rayonunda qeydə alınıb. Rayon taxılçıları 1 hektardan 51,4 sentner məhsul götürməyə müvəffəq olublar ki, bu da orta respublika göstəricisindən xeyli yüksəkdir. Bu sahədə Ağcabədi (44,4 sentner), Sabirabad (43,6 sentner), Samux (43,1 sentner), Salyan (42,3 sentner), Bərdə (42,2 sentner), Ağdam (41,8 sentner), Tovuz (40,9 sentner), Saatlı (40,2 sentner), Tərtər (39,7 sentner) və İmişli (39,5 sentner) fermerləri də yüksək göstəriciyə imza atıblar.

Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı isə Cəlilabad (229,8 min ton), Şəki (173,2 min ton), Ağcabədi (154,3 min ton), Füzuli (138,9 min ton), Kürdəmir (121,5 min ton), Hacıqabul (107,5 min ton), Biləsuvar (98 min ton) və İsmayıllı (95,7 min ton) rayonlarında müşahidə olunub. Bu il ölkədə taxıl üzrə orta məhsuldarlığın yüksək olmasında düzgün toxum seçimi, aqrotexniki qulluq qaydalarının vaxtında həyata keçirilməsi, xüsusilə alaq otlarına qarşı mübarizənin düzgün təşkili, eləcə də məhsulun vaxtında və itkisiz yığılması, kombaynların sürətli dislokasiya planının hazırlanaraq həyata keçirilməsi əsas rol oynayıb. Yeri gəlmişkən, mövsümün əvvəlindən biçin prosesinə 1344 kombayn cəlb edilib. Bunların da 475-i "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinə, 869-u isə fiziki və hüquqi şəxslərə məxsus olub.

Yeri gəlmişkən, hazırda kənd təsərrüfatı mütəxəssisləri taxıl əkini sahələrini genişləndirməkdənsə, məhsuldarlığın artırılmasına daha çox diqqət yetirilməsinin vacibliyini önə çəkirlər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev də çıxışlarında bu vacib məsələyə dəfələrlə toxunub. Mütəxəssislərin fikrincə, taxıl sahələrinin məhsuldarlığının artırılması üçün subsidiyaların ayrılması, yüksək keyfiyyətli və məhsuldar toxumların gətirilməsi vacib şərtdir. Bununla yanaşı, becərilmənin yaxşılaşdırılması ilə bağlı tələb olunan zəruri tədbirlər də vaxtında görülməlidir.

Son illər Azərbaycanda taxılçılığın inkişafına dövlət dəstəyi getdikcə artılır. Bu dəstəyin mühüm istiqamətlərindən sayılan subsidiya mexanizminin işə düşməsi taxılçılığa marağı ildən-ilə artırır. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndini əsas tutan Aqrar Subsidiya Şurası 2025-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib. Həmin qərara əsasən müasir suvarma sistemləri ilə təmin olunmuş taxıl sahələrinin hər hektarına görə 400 manat subsidiya nəzərdə tutulub. Müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrinin hər hektarı üçün isə bu məbləğ 140 manat müəyyən olunub.

– Bununla yanaşı, Aqrar Subsidiya Şurasının qərarına əsasən, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2022-ci il tarixli 1754 nömrəli fərmanından irəli gələn tapşırığa uyğun olaraq 2025-ci il üzrə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdanın hər tonuna görə 100 manat məbləğində məhsul subsidiyası müəyyən edilib.

# Hacıqabul Sənaye Parkında istehsal 50 faiz yüksəlib

**Azərbaycan Prezidenti İlham Əliyev ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili, habelə əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması məqsədilə İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması haqqında 12 iyun 2024-cü il tarixli fərman imzalayıb. Ötən müddətdə müəssisənin genişləndirilməsi ilə bağlı bir sıra layihələr həyata keçirilib.**




İZİA-dan verilən məlumata əsasən, indiyədək sənaye parkında investisiya həcmi bvcccc186 milyon manatdan çox olan 13 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Eyni zamanda, sahibkarlar tərəfindən sənaye parkına 64 milyon manat investisiya yatırılıb, 576 nəfərlik daimi iş yeri yaradılıb.

Qeyd edək ki, Hacıqabul Sənaye Parkı ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması ilə yanaşı, qeyri-neft sənayesi məhsullarının istehsalında və ixracında əhəmiyyətli rol oynayır. Belə ki, bu müəssisədə indiyədək sahibkarlar tərəfindən 345,6 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 5,4 milyon manatlıq hissəsi ixracın payına düşür. Cari ilin I yarısında isə sənaye parkında 65,6 milyon manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 50 faiz çoxdur.

Hazırda ölkəmizdə sənaye parklarının sayı 8 (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam, Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı) və 4 sənaye məhəlləsi (Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.

2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 140-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

# Azad Qarabağda müasir sənaye istehsalı qurulur

**Bu ilin yanvar-iyun aylarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, ümumilikdə, 233,8 milyon manatlıq sənaye məhsulu istehsal olunub və xidmətlər göstərilib. Bu da ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 72,8 milyon manat və yaxud 45,2 faiz çoxdur. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**



Bildirilib ki, cari ilin birinci yarısında sənaye məhsulu istehsalının 192,3 milyon manatı Qarabağ iqtisadi rayonunun payına düşüb. Belə ki, 6 ayda sənaye sektoru üzrə ümumi daxili məhsulun (ÜDM) həcmi Ağcabədi rayonunda 48,5 milyon manat, Bərdədə 36,1 milyon manat, Ağdamda 32,8 milyon manat, Füzulidə 26,4 milyon manat, Tərtərdə 20,7 milyon manat, Şuşada 20,6 milyon manat, Xankəndidə 4,6 milyon manat, Xocavənddə 2,2 milyon manat, Xocalıda 392 min manat, Ağdərə rayonunda isə 40,4 min manat təşkil edib.

Hesabat dövründə Şərqi Zəngəzur iqtisadi rayonunda 41,5 milyon manat dəyərində sənaye məhsulu istehsal edilib. Bu iqtisadi rayon üzrə ən çox sənaye məhsulu Laçında (27,5 milyon manat) istehsal olunub, bununla yanaşı, ilin ilk yarısında Kəlbəcər rayonunda sənaye məhsulu istehsalı 7,4 milyon manat, Zəngilanda 3,1 milyon manat, Qubadlıda 1,8 milyon manat, Cəbrayılda isə 1,7 milyon manat təşkil edib.

Xatırladaq ki, Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-iyun aylarında 31,2 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz az sənaye məhsulu istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 3,1 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 6,3 faiz artıb.

**Sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq kiçik və orta biznes (KOB) subyektlərinin böyüməsi və dövriyyəsinin artması bu qurumların yaradılan imkanlardan səmərəli istifadə edərək davamlı inkişaf yolu ilə uğurla irəliləməsini və iqtisadiyyatda payının yüksəlməsini göstərir. Sahibkarlığın inkişafı sahəsində ölkəmizdə reallaşdırılan məqsədyönlü dövlət siyasəti, KOB-lara göstərilən dəstək layihələri və təşviqlər öz müsbət nəticəsini verir. Sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq böyüyən və dövriyyəsi artan KOB subyektlərinin sayı getdikcə çoxalır.**

# KOB evləri özəl bölməni davamlı himayə edir

## *6 ayda sahibkarlara 208 min xidmət göstərilib*




2023-cü illə müqayisədə ötən il sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq böyüyən KOB-ların sayı 14 faiz çoxalıb, bu qurumların dövriyyəsi isə əvvəlki illə müqayisədə 2024-cü ildə 10 faizə yaxın artaraq 48 milyard manatdan çox olub. Hər iki göstərici KOB-ların ölkədəki əlverişli biznes mühitindən qaynaqlanan davamlı inkişafının və iqtisadiyyatda payının yüksəlməsi nəticəsində qeydə alınıb.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) verilən məlumata əsasən, respublikada kiçik və orta biznes subyektlərinə dəstək layihələrinin icrası bu ilin yanvar – iyun aylarında da diqqət mərkəzində saxlanılıb. Məsələn, cari ilin I yarısında respublikadakı KOB evlərində sahibkarlara, ümumilikdə, 208 min 194 (ötən ilin eyni dövrü ilə müqayisədə 23,2 faiz çox) xidmət göstərilib. Hesabat dövründə "Yevlax KOB evi" üzrə 31,2 faiz, "Xaçmaz KOB evi" üzrə 6,8 faiz, "Bakı KOB evi" üzrə isə 6,7 faiz artım qeydə alınıb. Bununla yanaşı, sözügedən dövrdə KOB evlərində sahibkarlara göstərilən dövlət – biznes və biznes – biznes xidmətlərinin ümumi sayında müvafiq olaraq 22,8 faiz və 26,7 faiz artım olub.

Beləliklə, KOB evləri sahibkarlara operativlik, şəffaflıq və vətəndaş məmnunluğu prinsipləri əsasında biznes xidmətlərinin göstərildiyi vahid məkandır. Hazırda KOB evlərində biznesin qeydiyyatından başlayaraq inkişaf etdirilməsinə qədər olan bütün zəruri xidmətlər, o cümlədən biznesin qeydiyyatı, lisenziya, icazə və digər sənədlərin alınması, vergi və gömrük məsələləri, güzəştli maliyyə vəsaitlərinə çıxış, kommunal xidmətlərə qoşulma, bank, sığorta, notariat və digər xidmətlər göstərilir. Ümumilikdə Bakı, Xaçmaz və Yevlax KOB evlərində sahibkarlara 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox "G2B" və "B2B" xidmətlər göstərilir. KOB evləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturuna daxildir.

Qeyd edək ki, KOB evləri ölkəmizdə kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə yaradılıb. Artıq Bakı, Xaçmaz və Yevlax şəhərlərində belə məkanlar fəaliyyət göstərir. KOBİA-nın struktur bölməsi olan KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin təqdim olunduğu vahid məkandır. Sahibkarlar bu məkana daha çox biznes fəaliyyəti üçün zəruri sənədlər, vergi və gömrük məsələləri, kommunal xidmətlər üçün müraciət edirlər. KOB evlərinə sahibkarların marağının artması, onların bir məkanda müxtəlif xidmətlərə asan çıxış əldə etməsi, prosesin sürətli, şəffaf və sahibkar məmnunluğu prinsiplərinə əsaslanmaqla təşkil olunması, həmçinin biznes subyektlərinin vaxt və xərclərinə qənaət imkanı ilə bağlıdır.

Azərbaycanın davamlı iqtisadi inkişafının reallaşdırılmasında sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial – iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Respublikamızda özəl sektorun inkişafı sahəsində reallaşdırılan sistemli layihələrin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaradılması da bunun bariz ifadəsidir.

Xatırladaq ki, hazırda Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Həmin qurumların innovativ inkişafının dəstəklənməsi strateji fəaliyyət gündəliyinin əsas elementlərindən biridir. Mikro, kiçik və orta sahibkarlıq müasir iqtisadiyyatların əsas sütunu və hərəkətverici qüvvəsi hesab olunur. Bu baxımdan, kiçik və orta biznes subyektlərinin fəaliyyətinin şaxələndirilməsi və innovasiya səviyyəsi bütövlükdə ölkənin inkişaf göstəricisidir.

Müasir iqtisadiyyatların təcrübəsi sübut edir ki, KOB-lar təkcə iqtisadi göstəricilərin artmasına deyil, həm də məşğulluğun yüksəldilməsinə, sosial rifahın güclənməsinə mühüm töhfə verir. Azərbaycanda da kiçik və orta biznesin payı iqtisadiyyatın şaxələndirilməsi prosesində əhəmiyyətli rol oynayır. Bu sektor, eyni zamanda, qeyri – neft sektorunun inkişafını, ixrac imkanlarının genişlənməsini və yerli istehsalın gücləndirilməsini sürətləndirir.

KOB-ların innovasiya potensialının artırılması da strateji hədəflərdən biridir. Hazırda bu məqsədlə dövlət tərəfindən texnologiya parklarının, sənaye zonalarının, biznes inkubatorların yaradılması və startap ekosisteminin dəstəklənməsi istiqamətində mühüm addımlar atılır. Nəticədə sahibkarlar yeni bazarlara çıxış əldə edir, rəqabət qabiliyyətlərini artırır və iqtisadiyyatın modernləşməsinə töhfə verirlər.

Kiçik və orta biznesin gələcək inkişafı üçün dövlət dəstəyinin davam etməsi, maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi, rəqəmsal transformasiyanın sürətləndirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacibdir. Bu istiqamətdə aparılan islahatlar KOB sektorunun Azərbaycan iqtisadiyyatında sabitlik, dayanıqlılıq və innovasiya mənbəyi kimi mövqeyini daha da möhkəmləndirəcək.

# Nəqliyyat dəhlizlərində yarımillik daşımalar 16 milyon tonu ötüb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar – iyun aylarında nəqliyyat dəhlizlərində dəmir yolu nəqliyyatı ilə 7120,1 min ton, dəniz nəqliyyatı ilə 3752,2 min ton və avtomobil nəqliyyatı ilə 5307,7 min ton yük daşınıb.**



Şərq – Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 8300,8 min ton, o cümlədən Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi ilə 4088,9 min ton, Şimal – Cənub nəqliyyat dəhlizi ilə 4690,5 min ton, Şimal – Qərb nəqliyyat dəhlizi ilə 2930,4 min ton, Cənub – Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 258,2 min ton olub.

Dəmir yolu nəqliyyatı ilə daşınmış yüklərin 45,8 faizini, avtomobil nəqliyyatı ilə daşınmış yüklərin 42,3 faizini, dəniz nəqliyyatı ilə daşınmış yüklərin isə 95,1 faizini tranzit yüklər təşkil edib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülqadir Uraloğlu Avazada (Türkmənistan) keçirilən iclasda Orta Dəhlizdən sürətli və təhlükəsiz marşrut kimi fəal istifadənin dənizə çıxışı olmayan ölkələrin dayanıqlı inkişafına əhəmiyyətli töhfə verdiyini bildirib. O, dənizə çıxışın olmaması səbəbindən ticarətdə əlavə xərclər yarandığını, ixracatçıların mənfəətinin azaldığını və dənizə çıxışı olmayan ölkələrin beynəlxalq bazarlarda fəaliyyətinin çətinləşdiyini diqqətə çatdırıb.**

# Orta Dəhliz tezliklə dünya ticarətinə daha yüksək səmərə gətirəcək

*Bu yol yüklərin Şərqdən Qərbə çatdırılmasını 2-3 dəfə qısaldır*




Bu baxımdan Asiya, Avropa və Afrikanın kəsişməsində yerləşən Türkiyə multimodal nəqliyyat dəhlizlərini inkişaf etdirərək, qlobal logistika əlaqələrinin strateji mərkəzinə çevrilir və əsas rol oynayır. Xəzər dənizi üzərindən keçən Şərq –Qərb Orta Dəhlizi beynəlxalq ticarətdə səmərəli və məhsuldar alternativ kimi nəzərdən keçirilir.

Ə.Uraloğlu daha sonra vurğulayıb ki, Orta Dəhlizin sürətli və təhlükəsiz nəqliyyat marşrutuna çevrilməsi istiqamətində icra olunan layihələr sayəsində bu gün dənizə çıxışı olmayan ölkələrin dayanıqlı inkişafı əhəmiyyətli dərəcədə gerçəkləşir. Bundan əlavə, gömrük xidmətləri arasında əməkdaşlığın genişləndirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ticarət axınlarının həcmini artırır.

Qeyd edək ki, Orta Dəhliz regionun bir sıra ölkələrindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət marşrutudur. Bu, ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativdir. Marşrut Çindən başlayaraq Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrindən, eləcə də Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Avropaya çatır. Bu marşrut, eyni zamanda, Asiyanın şərq bölgələrini, o cümlədən, Çini Avropa ilə birləşdirən, daha uzun dəniz yollarından yan keçməklə quru yola malik olması ilə diqqət çəkir.

Yeri gəlmişkən, Türkiyə Prezident Administrasiyası yanında Kommunikasiya İdarəsinin yaydığı məlumata əsasən, qardaş ölkənin nəqliyyat və infrastruktur nazirinin müavini Ənvər İskurt İstanbulda keçirilən Avropaya qatarların yola salınması və qarşılanması mərasimində bildirib ki, Xəzər dənizindəki hava şəraiti və uzunmüddətli gömrük prosedurları səbəbindən Orta Dəhlizlə yükdaşıma əvvəllər 20 gündən çox vaxt aparırdı. Hazırda çatdırılma müddətinin 15 günə endirilməsi Çin, Türkiyə və Avropa üçün mühüm addımdır. Növbəti hədəf isə Alatavla Qars arasındakı marşrut üzrə çatdırılma müddətini 10 günə endirməkdir.

Qeyd edək ki, müasir dövrdə qlobal ticarət marşrutlarının təhlükəsizliyi və səmərəliliyi geosiyasi sabitlik qədər strateji əhəmiyyət daşıyır. Dünyada və regionda baş verən geosiyasi dəyişikliklər, xüsusilə Qırmızı və Qara dənizlərdə, Süveyş kanalında mövcud olan gərginliklər beynəlxalq yük daşımalarının istiqamətinə və logistika zəncirlərinə ciddi təsir göstərir. Bu fonda Avropa ilə Asiyanı birləşdirən Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) özünün qısa, təhlükəsiz və səmərəli xüsusiyyətləri ilə xüsusi ön plana çıxır.

Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropa ölkələrini birləşdirən çoxşaxəli logistika sistemidir. 2014-cü ildən fəaliyyət göstərən bu marşrut Şərq ilə Qərb arasında yüklərin daşınmasında ən optimal alternativ hesab olunur. Dəhlizin əsas üstünlüyü onun həm məsafə, həm də vaxt baxımından səmərəliliyidir. Ənənəvi dəniz marşrutları ilə müqayisədə yükün Çindən Avropaya çatdırılma müddəti 2-3 dəfə qısalır.

Ümumiyyətlə, dəhliz təkcə ticarət marşrutu deyil, həm də Avrasiya məkanında yerləşən dövlətlər üçün iqtisadi inteqrasiyanın mühüm vasitəsidir. Xüsusilə Mərkəzi Asiya ölkələri üçün dünya bazarlarına çıxış imkanlarının genişlənməsi baxımından əvəzsiz əhəmiyyət kəsb edir. Azərbaycanın unikal coğrafi mövqeyi isə ölkəmizi bu layihənin ayrılmaz hissəsinə çevirir. Qərblə Şərqin, Şimal ilə Cənubun kəsişməsində yerləşən respublikamız tarixən karvan yollarının, İpək Yolunun üzərində olub. Bu gün isə həm tarixi rol müasir infrastruktur və texnologiyalar vasitəsilə yeni məzmun qazanır.

Bakı – Tbilisi – Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, modernləşdirilmiş dəmir yolu və avtomobil magistralları Azərbaycanın tranzit potensialını dəfələrlə artırıb. Bunun nəticəsində ölkəmiz Orta Dəhlizdə yüklərin fasiləsiz, operativ və təhlükəsiz daşınmasını gerçəkləşdirən əsas həlqələrdən birinə çevrilib.

Son illərdə beynəlxalq ticarət marşrutlarının etibarlılığı ciddi sınaqlarla üzləşib. Qırmızı dənizdəki təhlükəsizlik problemləri, Süveyş kanalında baş verən böhranlar, Qara dənizdəki geosiyasi gərginlik dünya ticarətində alternativ yolların əhəmiyyətini daha da artırıb. Bu baxımdan Orta Dəhliz yalnız alternativ deyil, bəzən yeganə səmərəli seçim kimi önə çıxaraq diqqət mərkəzində saxlanılıb.

**Beləliklə, Azərbaycanın da daxil olduğu marşrutun üstünlükləri bunlardır:**

*– Çindən Avropaya yüklərin çatdırılma müddəti orta hesabla 12-15 günə endirilir;*

*– dəhliz münaqişə risklərinin minimal olduğu sabit regionlardan keçməklə təhlükəsizliyi gerçəkləşdirir;*

*– dəhlizdə dəmir yolu, avtomobil və dəniz nəqliyyatı inteqrasiya olunmaqla çoxmodal daşımalar reallaşır.*

Qeyd edək ki, Orta Dəhliz yalnız iqtisadi deyil, həm də siyasi inteqrasiyanın mühüm vasitəsinə çevrilir. Layihə üzvü olan dövlətlər arasında ticarət, logistika, gömrük prosedurları, rəqəmsal daşımalar sahəsində əməkdaşlıq dərinləşir. Eyni zamanda, respublikamız Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə iki mühüm beynəlxalq marşrutun sinerjisini yaradır. Bununla da Azərbaycan beynəlxalq aləmdə təkcə tranzit ölkə deyil, həm də logistika və ticarət mərkəzi kimi tanınır.

## *Ekspert rəyi*



***Samir HEYDƏROV, iqtisadçı-ekspert***

2013-cü ildə ilk qatarın xətta buraxılmasından indiyədək Çin – Avropa dəmir yolu xəttinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə 20 mindən çox qatar keçib. 20 mininci qatar Şimali Çində, Daxili Monqolustan Muxtar Rayonunda yerləşən Erenhot dəmir yolu limanından yola salınıb. Həmin qatarların 10 mini son 3 ilin payına düşüb. Xatırladaq ki, bu marşrutla 10 mininci qatar 2022-ci ildə yola salınmışdı. Hazırda ekspress 73 marşrut üzrə fəaliyyət göstərir, Almaniya və Polşa da daxil olmaqla 10-dan çox ölkədə 70-dən artıq logistika mərkəzini birləşdirir və Çinin 24 vilayətində 60-dan çox şəhəri əhatə edir.

Yeri gəlmişkən, Türkiyənin logistika şirkəti olan "Pasifik Eurasia"nın baş direktoru Fatih Erdoğan iyulun sonunda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə Çindən Türkiyəyə 2 yük qatarının yola salınmasını şərh edərkən bildirib ki, Orta Dəhliz artıq, sadəcə, bir ideya deyil. O, addım-addım gerçəyə çevrilir. Onun sözlərinə görə, ənənəvi dəniz marşrutları ilə müqayisədə Orta Dəhliz təkcə daha qısa yol təqdim etmir, həm də idarəetmə imkanlarını artırır. Bu qatarlar təkcə konteyner daşımır, həm də baxış, etimad, strategiya və ortaq gələcək daşıyır.

Qeyd edim ki, Orta Dəhliz regionun bir sıra ölkələrindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət marşrutudur. Bu marşrut ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativdir. Marşrut Çindən başlayan bu nəqliyyat marşrutu Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrindən keçərək Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərini qət edib Avropaya çatır. Orta Dəhliz Asiyanın şərq bölgələrini, o cümlədən, Çini Avropa ilə birləşdirən, daha uzun dəniz yollarından yan keçməklə quru yolu təklif edir.

## Strateji tərəfdaşlıq ABŞ-la ixraca və elektron ticarətə geniş imkan yaradır

**Azərbaycan və Ermənistan arasında ABŞ dövlət başçısının iştirakı ilə sülh müqaviləsinin paraflanması regionun siyasi mənzərəsini dəyişməklə yanaşı, həm də ixracatçılarımız üçün yeni imkanlar yaradıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalının rəhbəri Ayxan Qədəşov bu barədə deyib:**



– Bu gün "Azexport" portalının qarşısında duran əsas vəzifələrdən bir Azərbaycan məhsullarının ən qısa zamanda və ən aşağı loqistik xərclə dünya bazarlarına çıxışını gerçəkləşdirməkdir. İndiki yeni geosiyasi reallıq isə məhz bu məqsədə xidmət edir. Belə ki, Naxçıvan Azərbaycanın əsas ərazisi ilə birbaşa quru yolu vasitəsilə birləşəndən sonra ölkəmizin istehsalçıları üçün Türkiyə limanlarına çıxışın sürətlənəcəyi gözlənilir. Belə bir şəraitdə isə Avropa və Amerika bazarlarına daşınma müddətinin əhəmiyyətli dərəcədə azalacağı proqnozlaşdırılır.

Qeyd edim ki, bu gün "Amazon", "Etsy" və digər qlobal platformalarda elektron ticarətlə məşğul olan şirkətlər üçün loqistik imkanların genişlənməsi qiymət və zaman üstünlüyü yaradır. Məlumdur ki, Azərbaycanın ərzaq məhsulları da dünya bazarlarında təbii, keyfiyyətli və dadlı olması ilə diqqət çəkir. Eyni zamanda, bu kateqoriyadan olan məhsullar daha çox məhdud istifadə müddəti ilə seçildiyindən ixracında zəruri tələblər daha sərt şəkildə nəzarətdə saxlanılır. Məsələn, loqistika imkanlarının daha əlçatan olması nəticəsində malların ixrac bazarlarında rəqabətliyi genişlənir, ixrac stimullaşır, eləcə də məhdud istifadə müddəti olan məhsullar, məsələn, qida, çiçək və dərmanlar daha qısa müddətdə, keyfiyyətli şəkildə ABŞ və Avropa bazarlarına çatdırılır.

Yeni imkanlar Azərbaycan məhsullarının Amerika və Avropa bazarlarında daha möhkəm mövqe tutmasına dəstək olacaq. Belə ki, ABŞ-a ixracımızda artıq mühüm paya sahib olan ərzaq məhsulları (cem, mürəbbə, meyvə jelesi, meyvə püreləri), aqrar kimyəvi məhsullar (azot gübrələri), sənaye xammalı (ferrosilisium ərintiləri, ilkin polimerlər), eləcə də alüminium vərəqlər və konstruksiya qurğuları bu yeni dəhliz sayəsində daha ucuz, daha sürətli və daha rəqabətədavamlı şəkildə bazara çıxacaq.

Bununla yanaşı, "OTS Made" brendinin inkişafı və Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə istehsal – ixrac təşəbbüslərinin genişlənməsi də yeni mərhələyə qədəm qoyur. Türk dövlətlərində istehsal olunan məhsullar artıq bu nəqliyyat imkanlardan səmərəli yararlanmaqla dünya bazarlarına daha sürətli və ucuz çıxış əldə edəcək. Bu, həm regional ticarət əlaqələrinin möhkəmləndirəcək, həm də ixracatçıların rəqabət üstünlüyünü gerçəkləşdirəcək.

ABŞ-la imzalanan strateji tərəfdaşlıq sənədində rəqəmsallaşma və süni intellektin inkişafı da prioritet istiqamət kimi müəyyən olunub. Bu da, öz növbəsində, elektron ticarətdə innovativ həllərin tətbiqini sürətləndirəcək, Azərbaycan şirkətlərinin qlobal bazarlarda mövqeyini gücləndirəcək. İnvestisiyaların, yeni texnologiyaların və kənd təsərrüfatında müasir aqro texnologiyaların ölkəmizə gətirilməsi isə həm istehsal həcmini, həm də ixrac keyfiyyətini artıracaq. Beləliklə, formalaşan yeni reallıq bölgədə sülhü, eləcə də davamlı iqtisadi inkişafı, rəqabətədavamlı ixracı və qlobal elektron ticarət imkanlarının genişlənməsini reallaşdıracaq.

# Xarici bank qrupu ölkəmizdə ÜDM-in artımını proqnozlaşdırır

**Niderlandın ING bank qrupu yaxın illərdə Azərbaycan ümumdaxili məhsulunun (ÜDM) artımına dair proqnozunu ictimailəşdirib. Sənədə əsasən, 2025 və 2026-cı illərdə ölkə iqtisadiyyatı 2,5 faiz artacaq. 2027-ci ildə isə artım tempinin 2 faizə qədər zəifləyəcəyi gözlənilir.**




Bank qrupu, həmçinin cari ilin rübləri üzrə inkişaf tendensiyasına nəzər salıb. Qurumun qiymətləndirməsinə görə, 2025-ci ilin üçüncü rübündə Azərbaycanda ÜDM-in artımı 2,5 faiz təşkil edəcək. Dördüncü rübdə isə bu göstərici 4 faizə qədər yüksələcək.

Qeyd edək ki, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-may aylarında ölkədə 50 milyard manatdan çox ÜDM istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,9 faiz artıb.

ÜDM istehsalının 36,2 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi inşaat, 4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 21,7 faizi digər sahələrdə qeydə alınıb. Məhsullar və idxal üzrə xalis vergilər isə ÜDM-in 10,4 faizini təşkil edib. Hesabat dövründə ölkədə adambaşına düşən ÜDM 4 min 896,1 manat olub.

## Qarabağ və Şərqi Zəngəzurun yeraltı sərvətləri qiymətləndiriləcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyindəki Geoloji Kəşfiyyat Agentliyinin məlumatına görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında faydalı qazıntı yataqları qiymətləndiriləcək.**



Agentlikdən bildirilib ki, bununla bağlı əvvəlcə ərazilərə tanışlıq marşrutları təşkil ediləcək, daha sonra regionun mineraloji araşdırmaları aparılacaq. Eyni zamanda, regionda faydalı qazıntıların axtarışında perspektivli zonalarının öyrənilməsi, şırım sınaqlarının aparılması, kimyəvi sınaqların götürülməsi, eləcə də maqnit kəşfiyyatı işləri icra ediləcək. Proqnozlaşdırılmaya əsasən, bütün bu işlər 200 min manata başa gələcək.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur regionunun çox böyük qazıntı yataqları potensialı var. Təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycanın bu bölgəsinin inkişafı daha da sürətlənəcək, dağ-mədən sənayesinin yüksəlişi təmin ediləcək. Ən əsası azad edilən ərazilərin iqtisadiyyatı yenidən qurulacaq və yeni texnologiyalar tətbiq olunacaq, bu isə iqtisadiyyatı daha məhsuldar edəcək.

Xatırladaq ki, işğal dövründə Qarabağ və Şərqi Zəngəzurda 52 qızıl, gümüş, mis, civə kimi filiz, müxtəlif tikinti materialları, yeraltı şirin su və termal-mineral su yatağı istismar olunaraq talan edilib.

## Özəlləşdirmə və icarə büdcəyə 112,9 milyon manat qazandırıb

**Ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi sahəsində işlər davam edir. 2025-ci ilin yanvar-iyul aylarında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 26 hərrac keçirilib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 1 kiçik dövlət müəssisəsi və 500 nəqliyyat vasitəsi özəlləşdirilib. Hesabat dövründə özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 86 milyon manat təşkil edib.**



Bununla yanaşı, 7 ayda 406-sı qeyri-yaşayış, 2 min 68-i isə torpaq sahələri üzrə olmaqla 2 min 474 yeni icarə müqaviləsi bağlanılıb. Cari ilin ötən dövrü ərzində məqsədli dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələri) icarəsindən dövlət büdcəsinə 26,9 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Beləliklə, 2025-ci ilin yanvar-iyul ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə, ümumilikdə, 112,9 milyon manat vəsait daxil olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan torpaqlarında Ermənistan dövləti necə qurulub?

**AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsində Rusiya işğalından sonrakı dövrdə Qafqazda aparılan erməniləşdirmə prosesinin müxtəlif yönləri, xalqımıza məxsus torpaqlara köçürülmüş erməni icmalarının xəyanətkar əməlləri, bu ərazilərdə oyuncaq Ermənistan dövləti yaradılmasının gedişi ətraflı araşdırılır, tarixi fakt. sənəd və əsaslı sübutlar sistemləşdirilir.**

***Şöbənin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov "Şimali Azərbaycan ərazilərinin Rusiya imperiyası tərəfindən işğalı və Qərbi Azərbaycan torpaqlarının ermənilərə güzəştə gedilməsi" adlı tarixi oçerkində 1813, 1828, 1918, 1920-1929-cu illərdə tarixi ərazilərimizin necə erməniləşdirildiyini və itirildiyini tədqiq edib.***

Müəllif bildirir ki, çar Rusiyası və Qacarlar dövləti arasında 12 oktyabr 1813-cü il Gülüstan və 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqavilələrinə əsasən, Azərbaycan torpaqlarının bölüşdürülməsi soydaşlarımızın Avropada tətbiq olunan hər bir xalqın təməl hüququnun–legitimlik hüququnun pozulması ilə nəticələndi.Yəni Azərbaycan xalqının razılığı olmadan onun özü və ərazi bütövlüyü pozulmuş oldu.

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, Qacarlar dövləti və Osmanlı Türkiyəsi ərazilərindən ermənilərin Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülməsinə başlanıldı. 1826-1828-ci illərdə II çar Rusiyası–Qacarlar dövləti müharibəsi gedişində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərinə 8 min 249 erməni ailəsi köçürüldü. 1828-1830-cu illər ərzində isə Cənubi Qafqaza Qacarlar dövləti ərazisindən 40 min, Osmanlı Türkiyəsi ərazilərindən isə 85 min nəfər erməni köçürüldü. Onlar Gəncə və Qarabağ və İrəvan xanlıqlarının ən yaxşı torpaqlarında yerləşdirildilər. Erməni icmalarına 200 min desyatindən çox xəzinə torpağı ayrıldı.

1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində yenə Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq, ermənilər üçün qondarma "Erməni vilayəti" yaradıldı. Bu addım çar Rusiyası tərəfindən Azərbaycan xalqının legitimlik hüququnun növbəti dəfə pozulması idi. XIX əsrin 30-cu illərindən başlayaraq Rusiya imperiyası tərəfindən Cənubi Qafqazda həyata keçirilən xristian etiqadlı xalqların bu ərazilərə köçürülməsi işi getdikcə ardıcıl xarakter almaqla məqsədyönlü siyasətə çevrilmişdi. XIX əsrin axırlarında isə çar hökuməti köçürmə üzrə qanun vericilik aktlarının hazırlanmasına başlamışdı.

1899-cu il aprelin 15-də II Nikolay tərəfindən "Cənubi Qafqazda köçür- məyə icazə" haqqında qanun imzalanmışdı. 1900-cü il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülkü işlər üzrə baş rəisə icazə verilmişdi ki, "rus mənşəli və pravoslav dininə mənsub kəndlərin" vəsatətlərini yalnız ilkin qaydada müzakirə etməklə, onlar xəzinə torpaqlarında yerləşdirilsin. Yerli hakimiyyət orqanları çarın bu sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başlamışdılar.

***Tarixçi alim daha sonra qeyd edir ki, 1904-cü ilin iyulunda çar Rusiyası hökuməti tərəfindən daha yeni bir qanun verilmişdi:*** "Kənd əhlinin və əkinçi meşşanların könüllü surətdə köçürülməsi haqqında müvəqqəti qaydalar" barədə qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub yerli adamların və ya 3 idarənin – Daxili İşlər Nazirliyinin, Hərbi İdarənin və Qafqazda Mülkü İşlər üzrə Baş rəisin mülahizəsi ilə bölücü dini sektantlarına mənsub şəxslərin imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Cənubi Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi.

Çar hökuməti tərəfindən aparılan bu məqsədyönlü siyasət bütün XIX əsr ərzində davam etmiş və nəticədə Şimali Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı çar məmuru və publisist N.Şavrov 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyon nəfəri yerli əhali olmayıb, bizim tərəfimizdən buraya kö çü rü lənlərdir". XX əsrin əvvəlində onların Cənubi Qafqazda ən başlıca himayədarı olan Qafqaz canişini İ.Vorontsov-Daşkov 1912-ci il oktyabrın 12-də çar II Nikolaya məktubla müraciət edərək yazırdı: "Həmişə bizə böyük xidmətlər göstərmiş ermənilərə himayədarlıq etməklə biz etibarlı müttəfiq qazanmışıq".

Rusiya imperiyasının Cənubi Qafqazda təşkil etdiyi milli toqquşmalarla müşayiət edilən dağıdıcı müstəmləkə siyasətinin mahiyyətini I Dövlət Dumasının Yelizavetpol




(Gəncə – C.B.) quberniyasından seçilmiş deputatı İsmayıl xan Ziyadxanov 12 iyun 1906-cı ildə keçirilən I çağırış I sessiyanın 25-ci iclasında 1906-cı il mayın 27-də İrəvanda tatarlarla (azərbaycanlılarla– C.B.) ermənilər arasında baş vermiş toqquşmalar, əhalinin təhlükəsizliyinin təmin olunması tədbirləri barədə Nazirlər Şurası sədrinə verilən sorğuya dair müzakirələrdə iştirakı zamanı demişdi: "Biz-müsəlmanlara onlar deyirdilər ki, siz iqtisadi cəhətdən erməniləri kölə vəziyyətinə salmısınız, onlar öz çarlığını yaratmaq istəyərək güclü silahlanırlar, bir gün görəcəksiniz ki, siz artıq yoxsunuz. Ermənilərə isə deyirdilər ki, panislamizm ideyası müsəlman cəmiy- yətinin bütün təbəqələrinə dərin kök salmışdır və bir gün müsəlmanlar sizi tikə-tikə doğrayacaqlar. Fitnəkarlıq bu yolla gedirdi".

***Cəbi Bəhramov daha sonra yazır ki, 1917-ci il oktyabrın 26-da Rusiyada ABŞ və Avropa maliyyə maqnatlarının yardımı ilə bolşeviklərin həyata keçirdikləri hərbi çevriliş nəticəsində Petroqradda hakimiyyət onların əlinə keçdi.*** Sovet Rusiyası Polşa, Finlandiya və Pribaltika ölkələrinin dövlət müstəqilliyi tanınsa da, Cənubi Qafqaz ölkələri içərisində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi tanınmadı. Bunun isə əsas səbəbi Bakı neftini əldən verməmək idi. Buna görə də hakimiyyəti silahla ələ alan bolşeviklər çarizmin Şimali Azərbaycana qarşı yeritdiyi siyasətə daha sərt xarakter verərək daşnak-kommunist ermənilərdən istifadəyə üstünlük verdilər.

1917-ci il dekabrın 16-da RSFSR XKS-nin sədri V.Leninin sərəncamı ilə S. Şaumyan Qafqazın Fövqəladə və Səlahiyyətli Komissarı təyin edildi və ona burada öz fəaliyyətini təşkil etmək üçün 500 min rubl qızıl pul ayrıldı. Cənubi Qafqaza gələn Şaumyan Bakıda bütün anti-Azərbaycan siyasi qüvvələrlə birləşərək hakimiyyəti ələ keçirdi. Bolşevik-daşnak hakimiyyətini burada möhkəmləndirmək üçün 1918-ci il fevralın 13-də RSFSR XKS yeni qərar qəbul etdi. Bu qərara əsasən, Şaumyanın sərəncamına 31,8 milyon rubl qızıl pul, 5 min tüfəng, 2 milyon patron, 35 pulemyot, 2 aeroplan, 2 zirehli maşın və döyüşçü dəstələri, o cümlədən Moskva Hərbi Dairəsinin 4cü səyyar inqilabi dəstəsi göndərildi.

Nəticədə,1918-ci ildə Bakı şəhəri və onun ətrafında olan ərazilərdə yaşayan azərbaycanlı əhaliyə qarşı ən ağır cinayət-soyqırımı cinayəti törədilərək ən azı 12 mindən artıq azərbaycanlı məhv edildi. 1918-ci ilin martından 1921-ci il avqustun 1-dək isə bütün Şimali və Cənubi Azərbaycan ərazilərində 700 mindən çox azərbaycanlı soyqırımı cinayətlərinin qurbanı oldu.

Bu cinayətlərin hansı səbəbdən törədildiyini Şaumyan Leninə 13 aprel 1918-ci il tarixli məktubunda yazırdı: "Əgər onlar qəbula gəlsəydi, Bakı Azərbaycanın paytaxtı elan edilər və bütün qeyri-müsəlman ünsürlər tərk-silah və məhv edilərdi". O zaman Bakı şəhəri sovet Rusiyasının əlində idi. Bütün bunlarla yanaşı, Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Zəngəzur bölgələrində erməni quldur dəstələri yerli azərbaycanlı əhaliyə qarşı talan və quldur hücumlarına davam edirdi.

***I Dünya müharibəsinin gedişində çar Rusiyasının süqutundan sonra imperialist dairələrin fəal himayəsi ilə Qərbi Azərbaycanda yaradılmış oyuncaq Ermənistan dövlətinin ərazilərini bolşevik Rusiyasının tarixi türk torpaqları hesabına xeyli genişləndirdiyini sübuta yetirən müəllif daha sonra bildirir:***

– 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci il aprelin 28-də Şimali Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Daşnak Ermənistanı ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan SSR nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya milliyyətcə ermənilər, ya da gürcülər təmsil edirdilər.

1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının iclasında Zəngəzurun müsəlman əhalisi yaşayan hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar qəbul edildi. Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular. Belə ki, Cənubi Qafqaz MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur-Kürdüstan qəzasının 1,065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi.

Yenə də bu qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyatzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun 3 kəndi: Nüvədi, Ernəzir və Tuğut-Ermənistan SSR-ə verildi. Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə "bağışlanması" və burada Mehri rayonunun təşkili ilə Azərbaycan SSR özünün tərkib hissəsi olan Naxçıvan diyarından ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi.

Naxçıvan Muxtar Respublikasının 1921-ci il Qars müqaviləsi ilə müəyyən edilmiş sərhədlərinə gəldikdə isə, həmin müqavilədə Naxçıvan ərazilərinin qarantı kimi çıxış edən Osmanlı Türkiyəsi dövlətinin razılığı olmadan Cənubi Qafqaz Sovet MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə bölgənin 657 kvadrat kilometr ərazisi Ermənistan SSR-ə verildi. Bu orqanın 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən, Şərurun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistan SSR-ə keçdi.

# Göyçə soyqırımı Aşıq Ələsgər yaradıcılığında

**Aşıq Ələsgər irsinin müasir araşdırıcılarından şair-tədqiqatçı Salman Qaralar 1918–1920-ci illərdə erməni daşnak quldurların Qərbi Azərbaycanda, xüsusən Göyçədə törətdikləri soyqırımı və deportasiyanın ünlü el ozanının yaradıcılığında dərin iz buraxdığını açıb göstərən geniş araşdırma aparıb. Tədqiqatın önəmli bir qismini oxuculara təqdim edirik.**

***Müəllif əvvəlcə 1993-cü il aprelin ilk günlərində Murovdağın qarlı aşırımını piyada aşıb Göygölə pənah gətirmiş zavallı kütlənin yaratdığı məşum mənzərəni təsvir edir:***

– O gün gördüklərim nə idi, Allahım? Bir belə naləni, bir belə ahı, bir belə göz yaşlarını bu qara yer, bu mavi səma necə götürdü? Ağlayan kim, qışqırıb fəryad edən kim, öz doğmalarını qarışıq insan burulğanından axtarıb tapmağa çalışan kim. Səsdən-küydən qulaq tutulurdu, ana torpaq ayaqlar altda ovulur, əzilir, kül halına dönür, əsən küləyin təsiri ilə insanların başına sovrulurdu, gözlərinin, qulaqlarının, içinə dolurdu. Böyük bir kütlə vahimə içində fırlanırdı, fırtınaya düşmüş çör-çöp yığını kimi sağa-sola burulurdu...

İnsan itiyi olanlar itirdikləri adamları tapmaq ümidiylə gələn adamlara doğru qaçırdılar. Kədər, ümidsizlik dolu çağırış nidaları bu qarışıq fəryad xorunun içində aydın seçilirdi:

– Fərhad heyyy...

– Məmməd heyyy...

Murovdağ tərəfdən gələn şəxsi dövrəyə alırdılar, necə, hansı yolla qurtulduğunu soruşurdular. Özlərinin itkilərindən xəbər bilməyincə vaysınıb əllərinə, dizlərinə vururdular.

***Sonra tədqiqatçı 1993-cü ildən 75 il əvvələ – 1918-ci ildə Qərbi Azərbaycanın hər yerində törədilmiş kütləvi qırğından canını qurtarıb oxşar mənzərələrlə Kəlbəcərə, digər bölgələrə sığınmış insanların bəlalı taleyindən söz açır:***

– O zaman Azərbaycan müstəqil dövlət deyildi, Çar Rusiyasının ucqar bir əyaləti idi. Çar II Nikolay da taxtdan salınmış, Rusiyanı aclıq, yoxsulluq, vətəndaş müharibəsi bürümüşdü. Azərbaycanda da əhalinin böyük əksəriyyəti savadsız, dünyada və regionda gedən siyasi proseslərdən xəbərsiz idi. Bundan başqa, yoxsulluq, silah-sursat ehtiyatının olmaması, ayrı-ayrı bölgələrin bir-birindən xəbərsiz, məlumatsız olması da öz işini görmüşdü.

Tarixi mənbələrin verdiyi məlumata görə, 1917-ci ilin dekabrından 1918-ci lin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələri İrəvan, Eçmiədzin, Nor-Bəyazid qəzalarında 197 kəndi dağıtmış, əhalini öldürmüş və didərgin salmışlar. 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Göyçay, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə də bu qırğınları davam etdirmişlər. Naxçıvan, Gəncə və Zəngəzur vilayətlərində bu qırğın və talanların miqyası daha böyük olmuşdur.



Əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Göyçə mahalında olan qırğınlar haqqında, əhalinin sağ qalan hissəsinin öz yurd- yuvalarından qovulması haqqında, köçkün düşməsi haqqında da tutarlı tarixi faktlar azdır. Ancaq bu faciələrin bir qismi nə yaxşı ki, bədii sözün hesabına itib-batmayıb, aşıqların, nağılçıların dilində nəsildən-nəslə ötürülərək yaşamaq hüququ qazanıbdır.

Bir elə gələn fəlakət, bir yurdu gözləyən afət o elin sənətkarından, söz ustasından yan keçə bilməzdi. Dədə Ələsgərin əsərlərindən Göyçə mahalında yaşayan azərbaycanlıların öz yurd-yuvalarından qovulana–1918-ci ilə qədər də müəyyən çətinliklərlə üzləşdiyi məlum olur. I Dünya müharibəsinin törətdiyi qıtlıq, iqtisadi çətinlik kimi problemlərə ermənilərdən gələn milli zülm və ayrı-seçkilik də əlavə olunur. Qocaman sənətkar bir filosof uzaqgörənliyi ilə Göyçə mahalında iqtisadi çətinliklərin olduğunu, insanların həyat şəraitinin günbəgün pisləşdiyini bir sıra əsərlərində qeyd etdiyi kimi, "Bahalıq" şeirində də realistcəsinə təsvir etmişdir:

**Görməmişdik səksən ildə**
**Bir belə yaman bahalıq...**
**Ələsgərin bu dərdini**
**Gedin, dərdbilənə deyin.**

Qocaman sənətkar "Ələsgərin (əslində isə xalqın, millətin) dərdini" başbilənlərə, dərdbilənlərə deməklə xalqın bu acınacaqlı vəziyyətdən çıxış yollarını arayırdı. Ancaq heyiflər olsun ki, vəziyyət daha da pisləşdi. Göyçə mahalı öz yerindən yeridi, insanlar tərki- vətən oldular.

1918-ci ildə Aşıq Ələsgərin Göyçədən qaçqın düşən ailəsini Kəlbəcərdə Qanlıkəndin o vaxtki kişiləri Qalaboynu adlanan yerdə yerləşdirir. Qısa vaxtda onlar köməkləşib Aşıq Ələsgərə bir ev tikirlər. Kənd sakini Mərdanın çayın kənarında olan dəyirmanını işlətmək işini də Aşıq Ələsgərə həvalə edirlər. Aşıq Ələsgər həm bu dəyirmandan aldığı haqq ilə ailəsini dolandırır, həm də Qanlıkənd və İlyaslar (Ellazallar) arasında olan qan düşmənliyinin davam etməsinin qarşısını almış olur. Bu haqda "Dəyirmançı aşıq" dastan-rəvayətində belə deyilir: "Aşıq Ələsgərin Kəlbəcər tərəfdə dostları çox idi; Qanlıkənddən Mərdan oğlu Abbas, Dal, Usuf, Seyid Əziz...Bunlar bir neçə ulaq göndərdi, Aşıq Ələsgərgili köçürdüb apardılar."

1981–1984-cü illərdə təyinatla Kəlbəcər rayonunun Qanlıkənd kəndində müəllim işləyəndə dəfələrlə tarixi Lev qalasına qalanın üst yanında gedib Qalaboynu adlanan yerdə Aşıq Ələsgərin evinin yerini ziyarət etmişdim. Düşünmüşdüm ki, ömrünün qocalıq çağında Aşıq Ələsgər o dağlara, o yamyaşıl budaqlara, üstünü xəzəl basmış bulaqlara nə qədər şeirlər söyləmişdir. Əfsus ki, budağın, bulağın, torpağın yaddaşına yazılanları oxuya bilmirik. Oxusaydıq, çox mətləblərdən hali olardıq.

Qocaman el sənətkarının gələcək haqqında arzusunun əksinə olan fələyin çərxinin - "çarxı-kəcmədarın" belə fırlanması aşığın qəlbində dərin yaralar açır, bu yaraların sağalacağına ümidi, inamı qalmır:

**Dad sənin əlindən çarxı-kəcmədar,**
**Ürəyimdə yüz dərmansız yaram var.**
**Aşıq-dəyirmançı, ağa-çarvadar,**
**Sərraf gəlsin bu bazara, dolansın.**

Səməd ağanın, Aşıq Nəcəfin öldürülməsi xəbərini alan Aşıq Ələsgər zodlu Həmid ağanın da çarvadarlıq etdiyini (atla yük daşıyıb muzd aldığını) görüb bu ağrı-acıları da misraların içinə hörmüşdü.

Zaman bəd gəlmişdi, dövranın çərxi tərsinə dönmüşdü. Pis də, yaxşı da olsa mərkəzi hökümət (çar hökuməti) yıxılmış, dərəbəylik yaranmışdı. Faktiki olmayan dövlətdən, başını itirmiş cəmiyyətdən əli üzülən qocaman sənətkar üzünü Allaha, peyğəmbərə tutur, "şahlar şahın"dan imdad istəyir:

**Zalım cəllad nə giribdi qəsdinə,**
**Xəbər verin övladına, dostuna.**
**Şahlar şahı sayə salsın üstünə,**
**Ələsgərtək bəxti qara dolansın!**

Bu misralar doğma Göyçə mahalından deportasiya olunmasından yana Aşıq Ələsgərin könül dünyasında açılan yaraları, real həyatdan, çəkdiyi sitəmlərdən bezdiyini və az qala tərki-dünya halına gəldiyini göstərir. Azərbaycanlıların ov tüfənglərinin olmadığı halda ermənilərin ruslardan əldə etdikləri tüfənglərlə, hətta toplarla silahlanması, xalqımıza qarşı genosid siyasətini həyata keçirməsi qocaman el sənətkarının əndişəsini daha da artırır.

***Araşdırmaçı daha sonra qeyd edir ki, doğma türk obalarının, yurdlarının yağmalandığını, talan edildiyini görən qocaman el aşığı elsiz yaşamaqdansa eli ilə, obası ilə birgə hər cəfaya dözməyi, hətta ölməyi belə üstün tutur:***

**Arsız aşıq elsiz niyə yaşadı?!**
**Ölsün Ələsgərtək qulların, dağlar!**

"Dağlar" rədifli qoşmasında Dədə Ələsgər elat camaatının səxavətli-əliaçıq olduğunu ağır məclislər qurduğunu, öz mal-dövlətini şülən çəkdiyini bildirir. Malını şülən çəkən igidlərin indi yurdunun boş qalması Aşığı qüssəyə, qəmə giriftar edir:

**Hanı mərd iyidlər, boş qalıb yurdu?**
**Səxavətdə Eldar nurəlanurdu.**
**Erkək kəsib, ağır məclis qururdu,**
**Şülən çəkilirdi malların, dağlar.**

Şeirdə qəmgin, ümidsiz düşüncələrlə bərabər, mərdlik, cəsarət, hünər notlarının da olması Aşıq Ələsgərin Azərbaycan xalqının gələcəyinə, igid oğullarımızın düşməndən qisas alacağına inam bəslədiyinin əyani sübutudur:

Azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiya olunmasına, var-dövlətlərinin talan edilməsinə, bir çox günahsız insanların qətlə yetirilməsinə həsr olunmuş "Dağlar" rədifli şeirində də işarələrlə, aforizmlərlə, eyhamlarla danışan Aşıq Ələsgər erməni, rus sözlərini işlətmir, ümumiləşmiş şəkildə "xaçpərəstlə düşdü bund inqilabı" deməklə kifayətlənir:

**Gözəllər göysündən alırdı abı,**
**Dəhanda dadlıdır eşqin şərabı,**
**Xaçpərəstlə düşdü bunt inqilabı,**
**Onunçün bağlandı yolların dağlar**

***Salman Qaralar araşdırmasının sonunda göstərir ki, Aşıq Ələsgərin şeirlərinin bir çoxu itib-batmış, bir çoxu da müəyyən təhriflərə məruz qalmış, digər aşıq və şairlərlə bəzi şeirləri dəyişik salınmışdır. Ayrı-ayrı nəşrlərdə bəzi söz və ifadələr, hətta misralar belə kitabın redaktoru və ya tərtibçisinin zövqünə uyğun olaraq dəyişdirilmişdir:***

– Aşıq Ələsgərin şeirlərini Sovetlər dönəmində toplandığını və nəşr edildiyini nəzərə alsaq, onun əsərlərində milli münasibətlərə, xalqımızın tarixi torpaqlarında, o cümlədən İrəvan xanlığı ərazisində ermənilərin məskunlaşdırılmasına, azərbaycanlıların sıxışdırılmasına və nəhayət deportasiya olunmasına aid nümunələrin az olmasını başa düşmək olar.

***Səhifəni hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Milli dəyərlər və istiqlal nəğməkarı

**Bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin 100 yaşı tamam olur. Məlum olduğu kimi, Prezident İlham Əliyev şairin yubileyinin qeyd edilməsi haqqında 21 fevral 2025-ci il tarixli sərəncam imzalayıb.**



Sərəncamda qeyd olunub ki, Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli-azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəkidə anadan olub. Xalq şairi bir sıra orden və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali dövlət mükafatı – "İstiqlal" ordeni ilə təltif edilib. Böyük qələm ustası 2009-cu il fevralın 13-də ömrünün 84-cü ilində dünyasını dəyişib.

Türk ədəbiyyatının böyük nümayəndəsinin yubileyi ilə bağlı təkcə ölkəmizdə deyil, bütün Türk dünyasında çoxsaylı tədbirlər keçirilir. İlin əvvəlində TÜRKSOY-un Ankaradakı baş ofisində "Bəxtiyar Vahabzadənin Anım İli"nin açılışı münasibətilə təntənəli tədbir keçirilib. Bu barədə qərar hələ 2023-cü ilin oktyabrında TÜRKSOY-un Mədəniyyət Nazirləri Daimi Komitəsinin Şuşada keçirilən 40-cı iclasında qəbul edilmişdi. Bu beynəlxalq qurum əvvəllər də unudulmaz şairin yaradıcılığına dair konfranslar təşkil edib, onun əsərlərinin xarici dillərə tərcüməsinə şərait yaradıb.

Bəxtiyar Vahabzadə kimi şəxsiyyətlər üçün zaman məfhumu yoxdur. O yaşayıb, yaşayır və yaşayacaq.

***XQ***

*Bəxtiyar VAHABZADƏ*

## ÖZÜMDƏN NARAZIYAM

*Təbiətin könül açan*
*Min rəngi, min səsi var.*
*Hər könülün min arzusu,*
*Min səsli nəğməsi var.*

*Bu arzular, bu nəğmələr,*
*Bu səslər bir saz kimi*
*Mənim solğun sözlərimdə*
*Heç dil aça bildimi?*

*Hissim dərin, sözüm solğun,*
*Qəlbim geniş, sinəm dar.*
*Məndən əvvəl doğulubdur*
*Sinəmdəki duyğular.*

*Səhv atılan addımları*
*Sonradan anlayıram.*
*Baxıb vicdan güzgüsünə*
*Özümü danlayıram.*

*Siz ey yanlış addımlarım,*
*Məni dərdə saldınız.*
*Mən sizinlə döyüşdükcə,*
*Gün-gündən çoxaldınız.*

*Mən haqq-hesab istəyirəm*
*Gecələr gündüzümdən.*
*Narahatam, narazıyam*
*Ömrüm boyu özümdən.*

*Bizim sənət dünyasının*
*Qırıq telli sazıyam.*
*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam.*



# Vahabzadə fenomeninin sənət və şəxsiyyət bütövlüyü



Mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirələridir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı.

"Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular.

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

Siz yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız.

Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi adınız ölkəmizdə daim ehtiramla çəkilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər – məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli mücadiləsi olan ağaran saçlar motivi təkrar olunsa da, ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir.

***Rəsul RZA***

Bəxtiyar Vahabzadə fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır...

...Bəxtiyar Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur.

***Mehdi HÜSEYN***

Bəxtiyar poeziyası döyüşdür – o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lüvhələr yaradır; başı qarlı Kəpəz, Şahdağı, Savalan, Kürün, Arazın uğultulu qırovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu,ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.

***NİYAZİ***

Yalnız millətinin adından danışan şair milli şair olur. Bəxtiyar Vahabzadə məhz belə şairdir.

***Yaşar QARAYEV***

Sovet senzura sisteminin dar çərçivələriində də Bəxtiyar Vahabzadə öz sözünü deyə bilmiş, hələ o illər Şəki qəzetində çap etdirdiyi "Gülüstan" poemasında xalqımızın tarixi faciəsi haqqında, bölünməsi, ikiyə ayrılması, parçalanması və əsarətə düşməsi haqqında təsirli, yanıqlı bir dillə söz açmışdı. Azad, müstəqil Azərbaycan uğrunda mübarizənin çətin yollarında Bəxtiyar müəllimi həmişə ön sıralarda görmüşük. Hər bir böyük şairimiz kimi, Bəxtiyar Vahabzadənin də bəzən başa düşülmədiyi, niyyətinin, sözünün tərs yozulduğu məqamlar olub. Amma bütün böyük sənətkarlar kimi o, səbir, dözüm sınağından da ləyaqətlə keçə bilib.

***ANAR***

...Bəxtiyar Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir. Onun poeziyasında şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb...

***Oljas SÜLEYMENOV***

B.Vahabzadə yaşlı nəslin hafizəsində özünə möhkəm yer tutan cavidlərin, cavadların, müşfiqlərin, ildırımların dediklərini yeni mərhələdə yeni nəslə deməyə çalışır, tapıntılarını poetik təzadlar üstə quraraq sətiraltı mənalara "enir" və bu yaradıcılıq axtarışları onu başqa müəlliflərdən fərqləndirirdi.

***Nəriman HƏSƏNZADƏ***

Bəxtiyar Vahabzadənin yaradıcılığı insanın mənəvi və ictimai bütövlüyünə mane olan hər cür çəpərlərə qarşı üsyan poeziyasıdır.

***Sabir RÜSTƏMXANLI***

Şair hər şeirində təbiidir, çünki o, səmimidir, ürəyiaçıqdır, ədabaz deyil, sünilikdən uzaqdır. Onun poeziyasında ağır və eyni zamanda çəkisiz, şəffaf və əsrarəngiz poetik iksir var.

***Pavlo MOVÇAN (Ukrayna)***

# Poeziyamızın Bəxtiyarı



**Bu gün Batıdan-Doğuya, Doğudan-Batıya hər bir türkün çox sevdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Bu fikrin isbatına heç bir ehtiyac yoxdur – desək də, deməsək də, tarix özü bu həqiqəti təsdiq edib.**

Şairlərin böyüklüyünü xalq bilir, xalqın yaddaşı onun sevgisi kimidir.

30 il öncə B.Vahabzadənin anadan olmasının 70 illiyi münasibətilə belə bir kitab nəşr olunmuşdu: "Poeziyamızın Bəxtiyarı". O kitabda B.Vahabzadənin yaradıcılığı, keçdiyi ömür yolu və şəxsiyyəti barədə məqalələr, resenziyalar toplanmışdı. Dünyanın, Azərbaycanın tanınmış sənətçiləri poeziyamızın Bəxtiyarına ən səmimi, ən duyğulu ürək sözlərini izhar edirdilər.

Bəxtiyar Vahabzadə poeziyası onun şəxsiyyətindən ayrılmazdır. Əslində, hər hansı bir şeir şairdən kiçik bir zərrədir. Şair havadan poeziya yarada bilməz. Poeziya onun ruhi, iç aləminin bəlirtiləridir. Şairin dünyası isə ÖZ DÜNYASI ilə yaşadığı dünyanın harmoniyasından, yaxud ziddiyyətindən yaranır. Harmoniya yarananda şair yaşadığı dünyanın gözəlliklərindən hədsiz zövq alır. Amma bəzən elə ifrata varır ki, ətrafında top atılsa da, diksinmir, yaxud, o dərəcədə ifrata varır ki, həyatda olmayan gözəlliyə də bir gözəllik donu bəxş edir, despotu adil padşaha çevirir və s. Öz dünyası ilə yaşadığı dünya arasında bu cür süni harmoniya yaradan şairlərin çoxu ilhamına xəyanət edənlərdir. Şair ilk şeirindən son şeirinəcən təkcə gözəllikləri vəsf etməməlidir, həm də və bəlkə də, ən başlıcası, yaşadığı dünya ilə müxalifətdə olmalıdır. Sevincin içində sevinc bolluğunu görməyə nə var, dərdi gör, qəmi sez, kədəri ara. Gözəlliyin içində gözəlliyin çalarlarını duymağa nə var, bu gözəlliyin faciəsini gör.

Mənim fikrimcə, Bəxtiyar Vahabzadə Mirzə Ələkbər Sabirdən sonra dövranla, dünya ilə ən amansız müxalifətdə olan şairlərimizdən birisidir. Dahi Sabirin "Hophopnamə"si göz yaşları içində qəhqəhə idi, üz tutduğu xalqa "özünü dərk et" harayını, fəryadını çatdırırdı. Bəxtiyarın "Bəxtiyarnamə"si isə nə göz yaşlarıdı, nə də qəhqəhə. Müdrik bir şair-filosofun bəzən çılğın, bəzən qəzəb, HİDDƏT, ÜSYAN dolu çağırışlarıdır. "Ey xalqım, özünü dərk et və düşün, əsrlər boyu səni izləyən və qəhr edən bu bəlalardan özün çıxış yolu ara, tarixdən ibrət al!"

*Törədi Koroğlu dəlilərindən*
*Savadlı, bilikli "ağıllılar" hey.*
*Bu ağıl hünərə deyil, bəs nədən*
*Kölə ehtiyata səcdə qılır hey?*

Əllinci illərin sonları. Sovet imperiyasının hələ heç sarsılmadığı, daha da güc topladığı o illərdə Bəxtiyar Vahabzadə "Gülustan" poemasını yazdı. Bircə elə bu fakt kifayətdir deyək ki, o taylı-bu taylı yatmış millətin içində huşyar insanlar da vardı, biri də Bəxtiyar Vahabzadə idi. CÜRƏT, QEYRƏT, MİLLİ AMAL insana bəxş olunmur, insanla birgə doğulur, qanda, ilikdə yaranır bunlar.

*Kağıza həvəslə o da qol atdı,*
*Dodağı altından gülümsəyərək.*

*Bir qələm əsrlik hicran yaratdı,*
*Bir xalqı yarıya böldü qılınc tək.*

*Öz sivri ucuyla bu lələk qələm,*
*Dəldi sinəsini Azərbaycanın.*
*Başını qaldırdı, ancaq dəmbədəm*
*Kəsdilər səsini Azərbaycanın.*

Xalqın, millətin sevimli şairinə ilk mənəvi zərbə də elə bu poemadan sonra dəydi. Amma Bəxtiyar sarsılmadı, bəziləri kimi, "günahını" etirafda bulunmadı. Bəxtiyar Vahabzadənin həm şəxsiyyəti, həm də yaradıcılığı onu millətin, xalqın böyük şairi anlamına gətirir. Onun üçün dünya Azərbaycandan başlayırdı, Azərbaycanla da bitirdi. Bu xalqın dəli-divanəsiydi.

Bəxtiyar poeziyasında həmişə zamanın ahəngi, ritmi, hətta addım səsləri aydınca duyulmuşdur. Zaman onun poeziyasında həm konkret mənada – dəqiq ayı, ili, əsri ilə məlum çərçivədə, həm də bütün keçmişləri indiyə və gələcəyə sığışdırılan bir dairədədir. Zamanın ayrı-ayrı bölümlərini ifadə edən yazılarında Bəxtiyar Vahabzadə "Gülüstan", "416", "Şəhidlər", "Yollar-oğullar" şairidir. Yəni konkret tarixi hadisələrin konkret zaman bölümündə əksi… Amma unutmaq olmaz ki, burada konkretliyin özündə də bir şərtilik var. "Gülüstan" bir xalqın tarixi faciəsinin ibrət dərsidir, bir zamanın başqa bir zamanda ehyası, sonrakı zamanın da əbədi ağrısıdır. "Şəhidlər" də həmçinin.

Amma elə şeirlər, poemalar var ki, orada Zaman dəyişməz və bütövdür, konkret bir ayla, əsrlə məhdudlaşmır. Məsələn, "İnsan və zaman" silsiləsindən olan bir sıra şeirlər, "Latın dili", "Gəl, ana təbiət", "Muğam", "Mənə nə var?", "Özümdən narazıyam", "Həyat, sən nə şirinsən", "Ana dili"... və s. bu qəbildən olan poetik nümunələr.

*Fırlandıqca bu dünya,*
*yox da dönüb var olur,*
*Quruyan çeşmələrdən sular yenə car olur.*
*Bu dünyanın xeyri də, şəri də təkrar olur,*
*Niyə təkrar olmasın? Axı, dünya fırlanır.*

…Onun poeziyası bütövlükdə tarixi keçmişimizə və XX əsr Azərbaycanına tutulan saf, ləkəsiz, təmiz bir güzgüdür deyirik. Poeziyamızda CƏSARƏTİN necə boy atdığını, müstəbidləri necə titrətdiyini hiss etdik. Qanlı Yanvar faciəsindən bir neçə gün sonra Bəxtiyar Vahabzadənin rus generalının üzünə tüpürdüyünü dedilər, amma o öz şeirlərində çox-çox əvvəl imperiyanın üzünə tüpürmüşdü.

Bəxtiyar şeiri düşüncə, idrak yoluna işıq saçır. Bu işıqdan hələ neçə nəsil faydalanacaqdır.

***Vaqif YUSİFLİ,***
***filologiya elmləri doktoru***

# Türk oğlunun hikmət dünyası

**Əsərləri aforizmlərlə zəngin olan Bəxtiyar Vahabzadə dəyərli sözləri söhbətlərdə, məclislərdə daha çox misal gətirilən şairlərimizdəndir. Çünki onun yaradıcılığı folklorla yaxından bağlı, xalq ruhuna yaxındır. Şairin şeir nəfəsi yaşadığı dövr, düşdüyü mühit, ictimai-siyasi ab-hava ilə ayrılmazdır. O, əsərlərində xalq hikmətlərindən yetərincə bəhrələnməklə yanaşı, onlardan yeri gəldikcə həm öz əsərlərində istifadə edib, həm də bu gün dillər əzbəri olan çox gözəl, dəyərli aforizmlər, hikmətli sözlər yaradıb. Aforizmləri, xalq hikmətlərini, kəlamları şeirin poetik dilinə uydurmaq və ya fikrin ifadəsində bənzər söz seçimi ilə tarazlaşdırmaq Xalq şairinin ustalığından, bacarığından xəbər verir. Bəxtiyar Vahabzadənin bir sıra kəlamını oxuculara təqdim edirik:**

✻ Qılınc bu gün varsa, sabah pas tutar,
Sözünsə qılıncı həmişə parlar.

✻ Əgər ana ürəyinə toxunsan,
Quş yuvası dağıdırsan elə bil.

✻ Nəsənsə, özün ol,
Kökündən yapış!
Dünənə arxalan,
Bu gündən yapış!

✻ Mən tək olan zaman fikirlərimin,
Hər biri yanımda bir adam olur.

✻ Nə qədər zirvəyə qalxıb ucalsan,
Sən qalxan zirvəyə enən deyiləm...

✻ Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

✻ Vətən borclu deyil, biz borcluyuq Vətənə.

✻ Keçmişinə daş atanın gələcəyinə güllə atarlar.

✻ Düzlük istəyənin ən əvvəl özü,
Əgər düz olmasa; vay o düzlüyə!

✻ Hamıya bəllidir savab işlərim –
Amma günahlarım tək mənə bəlli.

***Səhifəni hazırladı: Əli NƏCƏFXANLI***
***XQ***

# Şuşanın tarixi-mədəni irsi milli-mənəvi sərvətimizdir

*Müsahibimiz tanınmış kulturoloq, professor Minaxanım Əsədlidir*

***– Hörmətli professor, xalqımızın kulturoloji irsinin öyrənilməsi istiqamətində hansı işlər görülür?***

– Düşünürəm ki, əvvəlcə "kulturoloji irs nədir" sualına cavab vermək lazımdır. Kulturoloji irs cəmiyyətin tarixi, mədəniyyəti, təhsil və elm, idarəetmə, texnika, hüquq, tibb və digər sahələrə aid olan mədəniyyət nümunələrinin məcmusudur.

Azərbaycanın kulturoloji irsini, həm bütövlükdə, həm də ayrı-ayrılıqda, yəni müxtəlif bölgələr üzrə öyrənmək və təbliğ etmək son dərəcə vacibdir. Bunu etməsək, xalqımızın qədim və zəngin mədəniyyətə sahib olduğunu sübut edə bilmərik. Biz bir xalq, millət olaraq hansı yüksək mədəni irsə sahib olduğumuzun fərqində olmalıyıq.

Məlumdur ki, sovetlər dönəmində respublikaların milli mədəniyyətlərinə bir qayda olaraq onların layiq olduqları dəyər verilmirdi. Yalnız hakim ideologiyanın təbliğinə xidmət edən təhlillər üçün meydan yaradılmışdı. Biz milli istiqlalımıza nail olmuşuq.

Bu gün müstəqil Azərbaycanımızın mədəniyyətini bütün rəngarəngliyi ilə öyrənməyimiz çox önəmlidir. Xüsusilə, işğaldan azad edilmiş ərazilərin maddi və mənəvi irsinin araşdırılmasına böyük ehtiyac duyulur.

İşğalçı Ermənistan 30 ilə yaxın bir müddətdə Qarabağdakı maddi, mənəvi abidələrimizi məhv etməklə məşğul olub. Düşmən



bu ərazilərdəki xalqımızın tarixi kimliyi ilə bağlı hər şeyi vandalcasına dağıdıb.

***– Məlumdur ki, Qarabağın zəngin kulturoloji irsi içərisində Şuşanın xüsusi yeri var. Bu gözəl və bənzərsiz şəhərin istedadlı insanlarının onilliklər boyu yaradıb-yaşatdıqları mədəni-ideoloji dəyərləri gənc nəslə layiqincə çatdıra bilirikmi?***

– Şuşa, həqiqətən, Azərbaycanın mədəniyyət və təhsil baxımından ən zəngin tarixi yaşayış məkanlarındandır. Milli mənəviyyatımızın tacı olan bu gözəl şəhər XIX əsrin ortalarında Azərbaycanda başlanmış maarifçilik hərəkatının əsas mərkəzlərindən biri olub. Qeyd etmək lazımdır ki, maarifçilik ideyaları Şuşadan Qarabağın, eləcə də ölkəmizin digər bölgələrinə yayılmışdır.

O dövrdə Şuşada açılan yeni məktəblərdə dini təhsillə yanaşı, riyaziyyat, fizika, kimya, tarix kimi fənlər də tədris edilirdi. Bu, əhalinin, xüsusilə də gənc nəslin təhsilə, dünyəvi elmlərə olan marağını artırır və yeni düşüncə tərzi formalaşdırırdı.

Məlumdur ki, Şuşa özünün həm də bənzərsiz memarlıq abidələri ilə fərqlənir. Təsadüfi deyil ki, 1977-ci ildə Şuşanın tarixi hissəsi Azərbaycan tarix-memarlıq qoruğu elan olunmuşdur. Yeri gəlmişkən, bu mühüm qərar respublikamızın ovaxtkı rəhbəri, dahi siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir. Məhz o dönəmdən başlayaraq Şuşada tarixi abidələrin qorunması və xalqımızın görkəmli mədəniyyət, incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsinə diqqət və qayğı artırılmışdı.

Pənahəli xanın sarayı, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, digər tarixi abidələr ən yüksək səviyyədə təmir və bərpa olunmuşdu. Şərqdə peşəkar musqinin yaradıcısı olan Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev muzeyi sevilə-sevilə ziyarət edilən məkanlardan idi. Bundan başqa, Bülbülün və ensiklopedik alim Mir Möhsün Nəvvabın xatirə muzeyləri açılmışdı.

***– Şuşa həm də ədəbi mühitin mərkəzlərindən biri olmuşdur. Burada formalaşan maarifçi və realist ədəbiyyat, bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Bu mövzu kulturoloji aspektdən kifayət qədər araşdırılırmı?***

– Şuşanın ədəbi-mədəni mühitinin yetirməsi olan görkəmli maarifçi, dramaturq Nəcəf bəy Vəzirov Azərbaycan dramaturgiyasının inkişafına danılmaz töhfələr vermişdir. Yeri gəlmişkən, bu böyük ziyalı həyatda o qədər sadə və fədakar ziyalı olmuşdur ki, bəzən əsərlərindəki qadın rollarını ifa edən aktyorların əvəzinə, özü səhnəyə çıxmışdır.

Görkəmli yazıçı-dramaturqlar Əbdürrəhim bəy Haqverdiyev və Süleyman Sani Axundov həm milli teatrımızın, həm də milli nəsrimizin, eləcə də uşaq ədəbyyatının inkişafı və tərəqqisi üçün danılmaz xidmətlər göstərmişlər. Şuşada doğulmuş görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli bədii yaradıcılıqla yanaşı, ictimai və dövlət xadimi kimi də fəaliyyət göstərmişdir.

***– Şuşanın yetirdiyi parlaq tarixi şəxsiyyətlərdən biri də, şübhəsiz, görkəmli publisist, türkçülüyün böyük ideoloqu Əhməd bəy Ağaoğlu olmuşdur. Sizcə, bu mövzunu şərh edərkən hansı məsələlərə daha çox önəm verilməidir?***

–Böyük publisist, istiqlal mücahidi Əhməd bəy Ağaoğlu Şərq ilə Qərb arasında mütərəqqi düşüncə körpüsünü quran böyük ziyalı olmuşdur. 1869-cu ildə Şuşada anadan olmuş, erkən təhsilini əvvəlcə doğma şəhərdə, sonra Tiflisdə aldıqdan sonra Avropaya üz tutmuş, Parisdə nüfuzlu Sorbonna Universitetinin hüquq fakültəsini bitirmişdir.

Əhməd bəyin publisistik fəaliyyəti onun ideyalarının geniş kütləyə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. O, XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən "Həyat", "İrşad" kim qəzetlərdə, eləcə də "Füyuzat" dərgisində dərin ictimai-siyasi məzmunlu məqalələr dərc etdirmişdir.



Əhməd bəy Ağaoğlu öz dövrünün qabaqcıl düşüncə adamı idi. O, Avropa təhsilini almış, lakin Qərbin kor təqlidinə yox, onun mütərəqqi dəyərlərinin Şərqə uyğunlaşdırılmasına çalışan bir ziyalı idi. Onun maarifçilik ideyaları, qadın azadlığına verdiyi önəm, milli-mədəni kimlik uğrunda mübarizəsi bu gün də aktualdır. Əhməd bəy Ağaoğlu həm Azərbaycan, həm də qardaş Türkiyə cəmiyyətləri üçün ortaq dəyərdir. Onun zəngin irsindən bəhrələnməyimiz son dərəcə vacibdir.

***– İşğaldan azad edilmiş digər bölgələrimzin də kulturoloji irsi kifayət qədər araşdırılaraq təbliğ olunurmu?***

– Əlbəttə, təkcə Şuşa deyil, Qarabağın digər bölgələrinin də kulturoloji irsi diqqətlə araşdırılır, təbliğ və təqdir olunur. Bu, olduqca vacib missiyadır. Bu sahədə alim və tədqiqatçılarımızın fədakar əməyi təqdirəlayiqdir.

Bəllidir ki, Qarabağın giriş qapısı sayılan Cəbrayıl rayonunun ərazisi maddi-mədəniyyət abidələri ilə zəngindir. Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, XI-XIII əsrlərdə Araz çayı üzərində salınan tarixi Xudafərin körpüləri məhz bu rayonun ərazisində yerləşir.

Orta əsrlər folklor ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Qurbani də Cəbrayılda yaşayıb yaratmışdır. Bu bölgə ilə bağlı maraqlı faktlardan biri də budur ki, böyük Azərbaycan şairi Molla Vəli Vidadi XVIII əsrin sonlarında Cəbrayıl rayonunun Çələbilər kəndində dərs demişdir.

Cəbrayılla bərabər qonşu Füzuli və Zəngilan rayonlarının kulturoloji irsinin dərindən araşdırılaraq təbliğ olunması vacibdir. Bu istiqamətdə gərgin araşdırmalar davam edir. Yeri gəlmişkən, Azərbaycanımızın tarixi keçmişindən, zəngin mədəniyyətindən bəhs edən yeni elmi, publisistik və bədii əsərlər yaranır. Onların hər biri bir "mədəniyyət elçisi"nə çevrilərək dünyaya səs salır. Azərbaycanın ruhunu, sözünü, sənətini uzaqlara daşıyır.

Xalqımızın görkəmli ziyalısı, mərhum akademik Xudu Məmmədov dəfələrlə demişdir ki, gənclərə vətənpərvərlik mövzusunda uzun-uzadı danışmaqdansa, onlara Vətəni yaxından tanıtmaq lazımdır. O zaman onlar Vətəni özlərinki, doğma hesab edəcəklər. Xudu müəllimin bu dəyəri tövsiyəsini mən şəxsən bir kulturoloq olaraq özüm üçün fəaliyyət proqramı kimi qəbul edirəm.

**– Maraqlı müsahibə üçün təşəkkür edirik.**

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

Beynəlxalq həyat

# ABŞ hökuməti "Intel"də pay almaq istəyir

**Tramp Administrasiyası "Intel" şirkətində pay almaq üçün danışıqlara başlayıb. Bu, Trampın "Intel"in rəhbəri Lip-Bu Tanı Çinlə əlaqələri səbəbindən istefa verməyə çağırmasından sonra baş verib. Sövdələşmə baş tutarsa, bu, şirkətin dəfələrlə təxirə salınmış Ohayo ştatında fabrik tikintisinə kömək edə bilər.**




"Bloomberg" agentliyinin və "The Wall Street Journal" (WSJ) qəzetinin məlumatına görə, ABŞ Prezidenti Donald Trampın administrasiyası dünyanın ən böyük çip istehsalçılarından biri olan "Intel" korporasiyasında pay almaq üçün danışıqlar aparır. Bu ideya, avqustun 11-də prezident Trampın "Intel"in baş direktoru Lip-Bu Tan ilə görüşündə müzakirə edilib. "Bloomberg"in mənbələri bildirir ki, mümkün sövdələşmə "Intel"in Ohayoda tikməyi planlaşdırdığı fabrikin inşasına dəstək verəcək. Şirkət bu yeri dünyanın ən böyük çip istehsal müəssisəsinə çevirəcəyinə söz vermişdi, lakin layihə dəfələrlə təxirə salınıb. Maliyyə problemləri yaşayan "Intel" iyul ayında ilin sonuna qədər işçilərinin 15 faizini ixtisar edəcəyini, Ohayo fabrikinin isə 2030-cu illərdən əvvəl açılmayacağını elan etmişdi.

Danışıqların təfərrüatları hələ də müzakirə olunur, hökumətin ala biləcəyi payın ölçüsü dəqiq deyil və danışıqlar razılıq əldə edilmədən başa çata bilər. Bloomberg-in məlumatına görə, sövdələşmə 2025-ci ilin ikinci rübündə 2,9 milyard dollar zərər edən "Intel"in maliyyə vəziyyətini yaxşılaşdıracaq. Lakin "WSJ" investorlara istinadən yazır ki, təkcə dövlət maliyyəsi "Intel"in köhnəlmiş biznes modeli də daxil olmaqla bütün problemlərini həll etmək üçün yetərli deyil.

Ağ Ev "Intel" ilə danışıqların aparılmasını təsdiqləməyib, şirkət isə "şayiələr və fərziyyələr" barədə şərh verməkdən imtina edib. Lakin "Prezident Trampın texnologiya və istehsal sahəsində ABŞ liderliyini gücləndirmək səylərinə dərin sadiqliyini" qeyd edib. Tramp və Lip-Bu Tanın görüşü ABŞ prezidentinin şirkət rəhbərini "ciddi maraqlar toqquşması" səbəbindən vəzifəsini tərk etməyə çağırmasından bir neçə gün sonra baş tutub. Bundan əvvəl, Arkanzas ştatından respublikaçı senator Tom Kotton "Intel"in idarə heyətinin sədri Frenk Yeriyə məktub göndərərək, Lip-Bu Tanın Çinlə əlaqələri ilə bağlı narahatlığını bildirmişdi. "WSJ" qeyd edir ki, iş adamı on illərdir San-Fransiskodakı vençur firması və Honkonqdakı ofisləri vasitəsilə Çinin texnoloji startaplarına sərmayə qoyub.

Donald Trampın çağırışından sonra "Intel" ABŞ-ın milli maraqlarına və iqtisadi təhlükəsizliyinə sadiq olduğunu bəyan edib. Mart ayında şirkətə rəhbərlik edən Lip-Bu Tan ABŞ-ın 40 ildən çox müddət ərzində onun evi olduğunu və bu ölkəni sevdiyini vurğulayıb. İş adamının sözlərinə görə, onun əvvəlki vəzifələri, o cümlədən mikrosxemlərin və çap sxemlərinin layihələndirilməsi üçün proqram təminatı hazırlayan "Cadence Design Systems" şirkətindəki fəaliyyəti haqqında "çoxlu dezinformasiya" yayılır.

Bu danışıqlar həm də ABŞ hökumətinin daxili istehsalı və texnoloji liderliyini gücləndirmək üçün atdığı addımlardan biri kimi qiymətləndirilir. Belə ki, Vaşinqton yarımkeçirici sənayesində milli təhlükəsizliklə iqtisadi müstəqilliyi birləşdirən yeni strategiya həyata keçirir. Çinlə texnoloji rəqabətin getdikcə kəskinləşdiyi bir vaxtda ABŞ hökuməti çip istehsalını ölkə daxilində gücləndirmək, kritik infrastrukturun xarici asılılığını minimuma endirmək və yüksək texnologiyalar sahəsində lider mövqeləri bərpa etmək niyyətindədir. "Intel"lə mümkün sövdələşmə isə bu strategiyanın mühüm sınaqlarından biri olacaq.



***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ağdərənin Qayıdış sevinci davam edir

*Vəngli və Kolatağ kəndləri də övladlarına qucaq açdı*

**İgid, cəngavər Vətən övladlarının canları, qanları bahasına azad etdikləri Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri gündən-günə daha geniş vüsət alır, illər boyu Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlərin köç karvanları bir-birinin ardınca ata-baba yurdlarına istiqamət götürür. Bir vaxtlar göz yaşları içində ev-eşiklərindən didərgin düşmüş insanlar indi sevinə-sevinə daimi yaşamaq üçün geri qayıdırlar. Böyük Qayıdışın yeni ünvanına çevrilmiş Ağdərə rayonunda da həyat canlanır, rayonun yaşayış məntəqələri mərhələli şəkildə doğma sakinlərini qarşılayır.**

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq avqustun 15-də Vəngli və Kolatağ kəndlərinə qayıdışa da start verilib. İlkin mərhələdə Kolatağa 89 nəfərdən ibarət 26 ailə, Vəngliyə isə 83 nəfər (22 ailə) köçürülüb. Sakinlərə evlərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə xidməti Publik Hüquqi Şəxsin icraçı direktoru Telman Kərimli onları təbrik edib, doğma yurdlarında firavan həyat arzulayıb. T.Kərimli bildirib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri dövlətin prioritet fəaliyyət istiqamətlərindən biridir və bu, bütün keçmiş məcburi köçkünlərin öz doğma evlərinə qayıtmasına xidmət edir: "Bu gün biz tarix yazırıq. Burada atılan hər addım, yandırılan hər ocaq gələcəyin möhkəm təməlidir".

İcraçı direktor Vəngli və Kolatağda içməli su, elektrik enerjisi və qaz təchizatının, rabitə xəttinin tam bərpa olunduğu, həmçinin, küçələrin abadlaşdırıldığı, yol infrastrukturunun yeniləndiyi barədə də məlumat verib.

Mərasimdə iştirak edən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mütəxəssisləri isə kəndlərin ərazilərinin minalardan və partlamamış hərbi sursatlardan təmizləndiyini, sakinlərin təhlükəsiz yaşamaları üçün lazımi şəraitin yaradıldığını deyiblər.

Doğma kəndlərinə qayıdan sakinlər öz sevinclərini bölüşərək, bu günləri onlara yaşadanlara minnətdarlıqlarını bildiriblər.

***Kolatağ kəndinə qayıdışın həyəcanını yaşayan Rəşadət Musayev "Xalq qəzeti"nə açıqlamasında bildirib ki, Ağdərədə, ata-baba yurdunda daimi yaşamaq onun ən böyük arzusu olub:***

– Sonsuz sevinc və qürur içindəyəm. 53 illik ömrümün böyük hissəsini məcburi köçkün kimi yaşadım. Ancaq Allaha şükürlər olsun ki, bu gün ailəmlə birlikdə öz torpağıma qayıtmışam. Dövlətimiz var olsun, bizim rahat köçməyimiz üçün hər cür şərait yaradılıb. Elə Kolatağ da bizi sonsuz sevgi ilə qarşıladı. Elə bil bu yerlər əsl sahibləri üçün darıxıblar. Möhtərəm Prezidentimizin sayəsində bu gündən biz də daha məcburi köçkün deyilik. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!



***Rüxsarə Məmmədova isə 23 yaşında məcburi köçkün düşdüyü doğma Ağdərəyə, Vəngli kəndinə 33 ildən sonra həmişəlik qayıdışın sevincini sözlə ifadə etməyin mümkün olmadığını bildirib:***

– Bu, elə bir hissdir ki, ancaq yaşayan bilər. O qədər üzümü Vətənə tutub xəyallara dalırdım ki. Gənc yaşında tərk etməli olduğum bu gözəl yerləri bir də görmək, havasını udmaq, suyunu içmək, burada yaşamaq böyük xoşbəxtlikdir. Allah başda əziz Prezidentimiz olmaqla bu günləri bizə yaşadanları pənahında saxlasın, cəmi şəhidlərimizə rəhmət eləsin! Çox şükür, daha məcburi köçkün deyilik, artıq ağdərəliyik!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdərə**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 171 (30865) 16 avqust 2025-ci il, şənbə

İDMAN

## Yeniyetmə boksçularımız Çində

**Yeniyetmə boksçulardan ibarət Azərbaycan millisi Gəncədə keçiriləcək MDB Oyunlarına hazırlığı Çində davam etdirəcək.Bu barədə Azərbaycan Boks Federasiyasından məlumat verilib.**




Bakıda ilkin mərhələni başa vuran yığma növbəti təlim-məşq toplanışını Sincan-Uyğur Muxtar Rayonunda keçəcək.

Millimizin üzvləri burada yerli boksçularla hazırlıq keçəcək, yoxlama döyüşlərinə çıxacaq.

Qeyd edək ki, dünən səfərə yollanan komanda sentyabrın 1-də Bakıya qayıdacaq.

## “Sabah” və “Araz-Naxçıvan” mübarizəni dayandırdı

**UEFA Konfrans Liqasının III təsnifat mərhələsinin cavab oyununda Azərbaycan təmsilçiləri “Sabah” və “Araz-Naxçıvan” mübarizəni dayandırıblar.**



Masazırdakı Əlincə stadionunda baş tutan “Sabah” “Levski” (Bolqarıstan) görüşü qonaqların 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qonaqlardan Radoslav Kirilov (40) və Mazier Soula (85) fərqləniblər.

Qeyd edək ki, ilk oyunda Bolqarıstan klubu öz meydançasında 1:0 hesabı ilə qalib gəlmişdi.

“Araz-Naxçıvan” komandası isə Kiprdə “Omoniya” kollektivi ilə üz-üzə gəlib. Qarşılaşmada meydan sahiblərinin böyük hesablı qələbəsi qeydə alınıb–5:0.

## Dünya Oyunlarında daha 1 medal

**Çinin Çendu şəhərində keçirilən Dünya Oyunlarında Aerobika gimnastikası üzrə Azərbaycan millisinin üzvləri fəxri kürsüyə qalxıblar.**




Qarışıq cütlük proqramında çıxış edən gimnastlarımız Vladimir Dolmatov və Madina Mustafayeva gümüş medal qazanıblar. Onlar final mərhələsində yalnız yaponiyalı cütlük Mizuki Saito və Riri Kitazumedən geri qalıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Bir kəhrizin son nəfəsi

## *Su kəsiləndə yaddaş da quruyur*

**Gəncə səssizcə dəyişir. Yeni binalar, yeni yollar, haylı-küylü maşınlar, asfaltın altından keçən kabellər, borular... Və bütün bunların içində bir səs çoxdan kəsilib. O səs kəhrizin nəfəsidi. Bir zamanlar torpağın altından gələn, sanki Gəncənin sinəsindən çıxan bu su səsi, həzin şırıltı daha eşidilmir.**

Amma, əslində, kəhrizin son nəfəsi sükutdur. Təki bircə o sükut olmasın. Çünki bu sükut bəzən haraydan da gur olur.

Əsrlər boyunca Gəncə şəhərinin içməli su təminatında əsas rol oynamış kəhrizlər bu gün unudulmağa doğru gedir. Vaxtilə Göygöldən, dağlardan, bulaqlardan süzülüb gələn sular yerin altındakı bu əzəmətli su şəbəkəsi ilə şəhərə yayılırdı. Samovarlar bu sularla qaynayır, çayxanalar sərinlik tapır, evlərdə gil küplərə doldurulurdu. Kəhrizlər təkcə su qaynağı deyildi, həm də bir yaşayış mədəniyyəti idi.



Əgər kəhrizdən su gəlmirdisə, məhəllədə nə toy başlayar, nə yas keçirilərdi. Su gərək axaydı, bacalar tərpənəydi ki, həyat da öz yoluna davam etsin. Hətta bəzi məhəllələrdə belə adət vardı. Toy səhəri gəlinə gəldiyi evdə ilk su kəhrizdən içizdirilərdi. Yas günlərində su bacasının üstü təmizlənər, bir qab su ilə dua oxunardı.



Bizim həyətdə də bir-birindən aralı iki kəhriz quyusu vardı. Anam hər səhər pıçıldıya-pıçıldıya quyudan su çəkər və bizə içizdirərdi. O dad bir başqa bir dad idi. Mən deyərdim ilahi bir dad idi! İndi nə qədər istəyirəm o dadı xatırlayım, yada sala bilmirəm. Atam o sudan özü çay dəmləyərdi, ləzzətlə içərdi. İndi bütün bunlar yalnız şirin xatirələrdə yaşayır. Yoxdu daha o sudan!

...Tarixi mənbələrə görə, Gəncədə vaxtilə 70-ə yaxın kəhriz fəaliyyət göstərib. Bəziləri xalq arasında məşhurlaşıb, adları bu günə qədər gəlib çatıb: XVII əsrdə çəkilmiş, mühəndislik abidəsi sayılan Şah Abbas kəhrizi, məşhur hamamın su təminatını qarşılayan Çökək Hamam kəhrizi, şəhərin müdafiəsində strateji əhəmiyyət daşıyan Qala (İç Qala) kəhrizi, dini məkanlara və məhəllələrə su verən Məscid və Şahsevənlər kəhrizləri, Hacı Mirqasım kəhrizi, Ozan kəhrizi... Bu kəhrizlər sadəcə su xətləri yox, həm də mədəniyyət daşıyıcısı olub. Onlar suyu olduğu qədər tarix və yaddaşı da daşıyırdı.

Gəncənin su təchizatı əsasən kəhrizlər və bulaqlar vasitəsilə təmin olunurdu. Hər bir böyük məhəllənin özünəməxsus kəhrizi vardı. Məsələn, Şahsevənlər, Hacıkənd, Cavadxan, Nizami məhəllələrində bu cür qurğular mövcud idi. Kəhrizlər ictimai varlıq sayılırdı, onların qorunmasına və təmizliyinə məhəllə sakinləri birgə məsuliyyət daşıyırdı.

Keçən il bir tanışımızın həyətində köhnə bir daş bacaya rast gəldik. Toz basmış, kənarları otla örtülmüşdü. Ev sahibi dedi:

– Uşaqlıqda oradan su çəkərdik. İndi heç kim yaxın getmir... Bacaya yaxınlaşdıq. İçəridən zəif bir səs gəlirdi. Hiss etdim ki, bu, suyun yox, boşluğun səsidir. Sanki, torpaq öz səsini içində saxlamışdı. Kəhriz nəfəs alırdı, amma boğulmuşdu. Bir zamanlar Gəncənin neçə-neçə küçəsini, həyətini, insanını su ilə yaşadan kəhrizin son nəfəsi idi.

Əvvəllər kəhriz susanda bu, kənddə ya da şəhərdə bir hadisə sayılırdı. Su kəsiləndə adamlar kəhrizin ağzına toplaşar, kənkan çağırılar, bacalar təmizlənərdi. Bu, sadəcə texniki bir iş deyildi, bir cəmiyyətin birgə yaşamaq qərarı idi.

Bu gün isə bir kəhrizin susması nə mətbuata çıxır, nə də bir məhəlləni narahat edir. Sanki biz susan kəhrizlə birgə öz yaddaşımızı da torpağa basdırmışıq. Yadımdadır, Gəncədə belə bir deyim vardı: “Bir şəhəri tanımaq istəyirsənsə, onun kəhrizlərinə bax.” Çünki hər kəhriz bir dövrün səssiz salnaməsiydi. Qədim zamanlarda Gəncəyə gələn tacirlər, ziyarətçilər, ilk növbədə harada su olduğunu soruşarmışlar. Onlara deyərmişlər: “Get, Şah Abbas kəhrizinin bacası ordadır – bax orda su, həm də dua var.” Beləcə şəhərin xəritəsi sanki kəhrizlərə görə qurulmuşdu.

Əgər bir şəhər öz su yolunu itirərsə, ruhunu da itirər. Gəncədə yüzlərlə kəhrizin izi var – amma izi ilə maraqlanan yoxdur. Qorunmayan hər kəhriz təkcə texniki qurğu yox, sosial yaddaş abidəsi kimi yoxa çıxır.

Gəncə kəhrizləri unikal bir mədəni təbəqədir. Onları qorumaq üçün ilk növbədə pasportlaşdırma və bərpa işləri həyata keçirilməlidir. Turizm marşrutlarına salınmalı, yerində məlumat lövhələri quraşdırılmalıdır. Məktəblərdə, universitetlərdə maarifləndirmə proqramları hazırlanmalıdır. Bu su yolları arxeoloji abidə statusu almalı, mühafizə olunmalıdır.

Kəhrizlər təkcə keçmişin yox, gələcəyin də su ehtiyatıdır. Biz bu axarları qorumaqla həm keçmişə hörmət göstərmiş, həm də gələcək



nəsillərə içində tarix axan bir həyat qaynağı miras qoymuş olarıq.

Bəlkə o son nəfəs deyil. Bəlkə biz hələ vaxtında yetişə bilərik. Gəncədə bir “Kəhrizlər Xəritəsi” tərtib olunsa, kəhriz izləri müəyyənləşsə, bəlkə bir neçə bacanı təmizləsək, su yenidən danışar. Hər halda su danışmaq istəyir. Sadəcə, qulaq asmaq lazımdır.

Bu yazı da elə o susan kəhrizlərə bir qulaq, bir qəlb, bir çağırış olsun deyə yazılıb. Çünki kəhriz nəfəs almasa, biz də rahat nəfəs ala bilmərik...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

# İş yeri – çörək ağacı

## *6 ayda 48,9 min adam məşğulluq qazanıb*

**Dövlət Statistika Komitəsindən mətbuata bildirilib ki, bu ilin əvvəlindən ölkədə yaradılmış iş yerlərinin 92,1 faizi qeyri-dövlət sektorunda açılıb. Yeni açılmış iş yerlərinin 74,7 faizi Bakı şəhərinin, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, 24,2 faizi digər regionların, o cümlədən 8,3 faizi Abşeron-Xızı, 2,6 faizi Quba-Xaçmaz, 2,5 faizi Şəki-Zaqatala, 2,3 faizi Gəncə-Daşkəsən, 2,1 faizi Qarabağ, 1,4 faizi Lənkəran-Astara, 1,1 faizi Mərkəzi Aran, 1,1 faizi Şərqi Zəngəzur, 1 faizi Şirvan-Salyan, 0,8 faizi Qazax-Tovuz, 0,5 faizi Dağlıq Şirvan və 0,5 faizi Mil-Muğan iqtisadi rayonlarının payına düşüb.**



Yeni açılmış iş yerlərinin 10,8 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 87,6 faizi mövcud müəssisə və təşkilatlarda, 0,5 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 1,1 faizi isə digər tədbirlər üzrə yaradılıb.

Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 25,6 faizi tikinti, 18 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi emal sənayesi, 7,8 faizi peşə, elmi və texniki fəaliyyət, 7,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,8 faizi informasiya və rabitə, 2,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 2,5 faizi təhsil, 9,6 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

Bununla yanaşı, 2025-ci ilin birinci yarımili ərzində ölkədə 4,3 min iş yeri bağlanıb. Bu dövrdə bağlanmış iş yerlərinin 53,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 24,2 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 75,8 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

***XQ***

***HAVA***

## Dəyişkən buludlu hava və yağış...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 21-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 29-34, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq.

***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI

***musiqi tarixi və nəzəriyyəsi fakültəsi üzrə boş olan dekan vəzifəsini tutmaq üçün***

**MÜSABİQƏ ELAN EDİR**

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** AZ1073, Bakı şəhəri, Ə.Ələkbərov küçəsi 7.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75** **Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02** **Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64** **info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3431**
**SİFARİŞ 1515**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**